QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 238 (5469) 27 **dekabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev Rusiyaya işgüzar səfər edib



Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə gəlib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident İlham Əliyev MDB dövlət başçılarının Moskvada keçirilən qeyri-rəsmi görüşündə iştirak etmək üçün "Novo-Oqaryovo" dövlət iqamətgahına gəlib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi salamlayıb. Sonra MDB dövlət başçıları birgə foto çəkdiriblər. Daha sonra MDB dövlət başçılarının qeyri-rəsmi görüşü olub. Dövlət başçıları görüşdə çıxış ediblər.

İlham Əliyev: "Biz istəyirik ki, dünyada dinlərarası dialoq güclənsin"



2

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Moskvada Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilib



4

Əli Həsənov: "Mətbuat dövlətlə cəmiyyət arasında körpü rolunu oynayır"



6

Novruz Məmmədov: "2017-ci il Azərbaycan üçün ən uğurlu illərdən olub"



7

ARAF ilin yekunları ilə bağlı tədbir keçirib



6

Aviqdor Liberman: "Azərbaycan bütün dövrlərdə dinlərarası və millətlərarası tolerantlıq nümunəsi göstərib"



9

13

Ermənilər Yeni ili acac qarşılayacaqlar



5

XİN açıqladı: "Rusiyalı fotoqrafın adı "Arzuolunmaz şəxslər siyahısı"ndan çıxarılıb"



16

Lyuis Həmilton: "Bottas "Mercedes"ə daha inamlı ab-hava gətirib"



# İlham Əliyev: “Biz istəyirik ki, dünyada dinlərarası dialoq güclənsin”

***Davamlı və dinamik inkişafı, spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycan inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır. Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə çıxarılması, iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində mühüm addımdır. Hərtərəfli və sürətli inkişaf dövrünü yaşayan Azərbaycan bu gün dünyəvi, hüquqi və demokratik dövlət olaraq multikultural, tolerant məkan kimi dünya dövlətləri tərəfindən qəbul olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə multikulturalizm Azərbaycanın dövlət siyasətinin əsas elementlərindən birinə çevrilib.***




Bu gün regionumuzda və dünyada yaşanan xoşagəlməz hadisələr, qanlı toqquşmaların olması Azərbaycan kimi sülhsevər bir dövləti narahat etməyə bilməz. Ölkəmiz dünyaya multikultural dəyərlərini, tolerant mühitini bəyan edərək, özünün xoşməramlı mesajlarını göndərir. Dünyada baş verən böhranlardan və münaqişələrdən uzaq olmaq, birgə tədbirlərin görülməsinə nail olmaq, terrorizmə, münaqişələrə qarşı səmərəli mübarizə aparmaq üçün vətəndaşlıq prinsipləri, insan haqları, bərabərlik amillərini hər zaman diqqətdə saxlayan Azərbaycan terrorizm aktlarını törədənlərə, irqi və dini zəmində münaqişə yaradanlara qarşı barışmaz mövqeyini ortaya qoyur, islam dünyasının həmrəyliyinə töhfəsini verir. Dövlət-xalq birliyinə əsaslanan müdrik siyasət sayəsində Azərbaycan yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Azərbaycanda vacib əhəmiyyət kəsb edən bir sıra konfranslar və forumlar keçirilir.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin “Multikulturalizm İli”, İslam Həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə 2017-ci ilin isə “İslam Həmrəyliyi İli” elan edilməsi bəşəri dəyərlərə olan ali münasbətin daha bir təzahürüdür. “İslam Həmrəyliyi İli” çərçivəsində İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi, 54 müsəlman ölkəsinin Azərbaycanda bir araya gəlməsi islam dünyasında böyük təntənə kimi qəbul olundu. Ölkəmizin tolerantlıq və multikulturalizm prinsiplərinə sadiqliyinin bariz nümunəsi olan oyunların ölkəmizdə keçirilməsi həm də Azərbaycanın dünyaya tanıtdırılması, Bakının gözəlliyinin nümayişi, tarixi və mədəni irsimizin təbliği üçün geniş imkanlar yaratmış oldu. Dünya və islam aləmi üçün çox önəmli idman yarışmasının ölkəmizdə təşkili dünya miqyasında nüfuzumuzun göstəricisi oldu. Azərbaycan Prezidenti İlham Əliyev bunu islam aləminin Azərbaycana, onun inkişafına verdiyi yüksək dəyər kimi qiymətləndirib: “Əlbəttə, biz fəxr edirik ki, Azərbaycan milli komandası bu yarışların qalibi oldu, birinci yerə layiq görüldü. Amma əsas məsələ bunda deyil. Əsas məsələ ondadır ki, bu oyunlar, bir daha göstərdi ki, islam həmrəyliyi var və gənc nəsil gərək, gələcəkdə bu gözəl dəyərləri daim dərk etsin və gücləndirsin. İki il bundan əvvəl isə, Bakıda tarixdə ilk dəfə olaraq, Avropa Oyunları keçirilmişdir. Digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunları 2015-ci ilə qədər heç vaxt keçirilməmişdir. İlk Avropa Oyunları Azərbaycanda keçirilmişdir və Avropadan 5 mindən çox idmançı burada yarışırdı və minlərlə qonaq gəlmişdi. Azərbaycan komandası bu oyunlarda ikinci yerə layiq görüldü”.

Həm Avropa, həm İslam Oyunlarının iki il ərzində bir şəhərdə və bir ölkədə keçirilməsi hər iki dünyanın Azərbaycana olan münasibətinin göstəricisidir. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir.

“İslam Həmrəyliyi İli” çərçivəsində il ərzində ölkəmizdə, eləcə də dünyanın bir çox məkanlarında beynəlxalq konfranslar və tədbirlər keçirildi. Bütün dünyada münaqişələrin, gərginliyin, islamofobiyanın, ksenofobiyanın və mədəni irqçiliyin artdığı bir vaxtda, Azərbaycan dünyaya birgəyaşayış mesajını göndərdi.

Dekabrın 21-də isə “İslam Həmrəyliyi İli”nin yekunlaşması ilə bağlı “2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda keçirilən beynəlxalq konfransın açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın qədim tarixə malik ölkə olduğunu və bunu dini-memarlıq abidələrimizin əyani sübut etdiyini diqqətə çatdırıb. Əsrlər boyu islam sivilizasiyasının əsas mərkəzlərindən biri olan Azərbaycan islam dininə həssaslıqla yanaşmış və eyni zamanda, müsəlman intibahının bərqərar olmasında mühüm rol oynayıb. Dinlə bağlı sərt qadağaların mövcud olduğu Sovet dövrü Azərbaycanında cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçib. Ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilib. Təbii ki, islam dünyasının bir parçası olan Azərbaycan il ərizində dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa, birgəyaşayışa öz töhfələrini verərək, sülhsevər siyasətini, bir daha dünyaya bəyan etmiş oldu. Geosiyasi baxımdan, minilliklər boyu Böyük İpək Yolu üzərində Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın ərazisində müxtəlif sivilizasiyalar qaynayıb-qarışıb və müxtəlif dinlərin nümayəndələri yaşayıb. Öz kökünə və ənənələrinə sadiq olan Azərbaycan başqa xalqların da dilinə, mədəniyyətinə böyük həssaslıqla, hörmətlə, qayğıkeşliklə yanaşıb və bu gün də bu ənənə davam etməkdədir. Ölkəmizin sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində inkişaf dövrünü yaşamaqla yanaşı, mövcud olan dinlərarası, millətlərarası münasibətlərdə belə, dünya üçün örnək, tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan dövlətə çevrilib.

Bütün bu və ya digər amillərlə yanaşı, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin, müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilib. Cənab İlham Əliyev çıxışında qeyd etdiyi kimi, Azərbaycan beynəlxalq aləmdə müsəlman ölkələri ilə çox yaxın münasibətlər qura bilmişdir: “Biz cəmi 26 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu illər ərzində ikitərəfli və üçtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir və gündən-günə güclənir. Biz BMT-də və digər beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilmişdir və Kontakt Qrupu yaradılmışdır”.

Ölkə daxilində islam həmrəyliyinin tam təmin olunduğunu vurğulayan ölkə başçısı “çalışırıq və çalışmalıyıq ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin olunsun”, - deyərək Azərbaycanın bu istiqamətdə öz töhfəsini verdiyini və önəmli addımlar atdığını diqqətə çatdırıb. Bu gün ölkəmiz sülh, əmin-amanlıq və təhlükəsizlik şəraitində inkişaf dövrünü yaşamaqla yanaşı, mövcud olan dinlərarası, millətlərarası münasibətlərdə belə, dünya üçün örnək, tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan dövlətə çevrilib. Əsrlər boyu Azərbaycanda yaşayan müxtəlif etnosun nümayəndələri sülh və həmrəylik şəraitində yaşayır və fəaliyyət göstərirlər. Heç bir zaman dini və etnik ədavət, etnik azlıqlarla münasibətdə ayrı-seçkilik faktları qeydə alınmayıb. Azərbaycan dövləti hər bir xalqın nümayəndəsinə eyni dərəcədə qayğı göstərir. “Azərbaycan o ölkələrdəndir ki, burada dini, milli zəmində heç bir problem yoxdur, heç bir - hətta kiçik bir anlaşılmazlıq yoxdur” - deyən dövlət başçısı ölkəmizdə yaşayan bütün millətlərin, bütün dinlərin nümayəndələrinin bizim dəyərli vətəndaşlarımız olduğunu və ölkəmizin ümumi inkişafına öz töhfələrini verdiklərini bildirib: “Ona görə, məhz Azərbaycanın dinlərarası dialoq işində fəal olması təbiidir”.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyada qeyd olunduğu kimi, milli və ya dini azlığın nümayəndəsi olmasından asılı olmayaraq, Azərbaycan vətəndaşı olan hər kəs ölkəmizdə eyni hüquqlara malikdir. Bu baxımdan, ölkəmizdə heç bir millətin, milli və ya dini azlığın nümayəndəsinə onların dini mənsubiyyətlərinə görə başqalarından üstün olmaq kimi ideyaları aşılamaq yolverilməzdir və bu, qanunda öz əksini tapır. Tolerantlıq və multikulturalizm, eyni zamanda, demokratiyanın təməl prinsiplərindən olan vicdan azadlığının təmin edilməsi və qanunun aliliyidir. Vicdan azadlığı, təhsil və elmə əlçatanlığın olması, insanların sosial və iqtisadi rifahının yüksəlməsi, qanunun aliliyi demokratiyanın əsas göstəriciləridi.

## “BİZ İSTƏYİRİK Kİ, HƏM MÜSƏLMAN ALƏMİNDƏ, HƏM AVROPADA, ÜMUMİYYƏTLƏ, DÜNYADA DİNLƏRARASI DİALOQ GÜCLƏNSİN”

Cənab İlham Əliyev ölkəmizdə dinlərarası və mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirildiyini bildirib. BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Humanitar Forumu və s. belə tədbirlər sırasındadır. Cənab Prezident belə beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsinin təbii olduğunu diqqətə çatdıraraq, Azərbaycanın sivilizasiyalar arasında həmişə müsbət rol oynadığını qeyd edib.

Ardı Səh. 3

# İlham Əliyev: “Biz istəyirik ki, dünyada dinlərarası dialoq güclənsin”



Əvvəli Səh. 2

Belə ki, Azərbaycan Asiya ilə Avropa arasında həm coğrafi, həm mədəni və bu gün siyasi baxımdan, bir körpü rolunu oynayır: “Biz istəyirik ki, həm müsəlman aləmində, həm Avropada, ümumiyyətlə, dünyada dinlərarası dialoq güclənsin. Əfsuslar olsun ki, son vaxtlar biz tam əks mənzərə ilə üzləşirik - dözümsüzlük, islamofobiya, ksenofobiya və antisemitizm artır. Bu, bəşəriyyət üçün böyük təhlükədir və böyük bəladır. Din xadimlərinin, ictimai xadimlərin, siyasətçilərin, geniş ictimaiyyətin bu məsələ ilə bağlı fikri və mövqeyi, əlbəttə ki, dünya ictimaiyyəti üçün də çox önəmlidir. Bakıdan, yüksək mötəbər kürsülərdən dəfələrlə dünyaya çağırış edilmişdir ki, dinlərarası münasibətlər hər bir ölkə üçün önəmlidir. Dünyada əksər ölkələr çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Belə olan halda, bu mövzu vətəndaş sülhü, vətəndaş həmrəyliyi üçün, hər bir ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz öz tərəfimizdən ölkə daxilində bütün məsələləri ən yüksək səviyyədə həll edirik. Eyni zamanda, əminəm ki, bölgədə və dünyada Azərbaycan təcrübəsi öyrənilir”.

## “ÜMUMİ MƏQSƏDİMİZ ONDAN İBARƏTDİR Kİ, DÜNYADA SÜLH, QARŞILIQLI HÖRMƏT, QARŞILIQLI ANLAŞMA OLSUN, ÖLKƏLƏR BİR-BİRİNİN İŞİNƏ QARIŞMASIN”

Onu da qeyd etməliyik ki, uğurlu starteji inkişaf yolunda olan Azərbaycanın Ermənistanla olan münaqişəsi illərdir ki, davam etməkdədir. İşğal nəticəsində Azərbaycanın 1 milyondan artıq qaçqın və məcburi köçkünü var. Dövlət başçısı dəfələrlə çıxışlarında Azərbaycanın erməni təcavüzü, ərazimizin işğalı nəticəsində müharibə və humanitar fəlakətdən əziyyət çəkdiyini diqqətə çatdırıb. Bütün mötəbər beynəlxalq təşkilatların müvafiq qətnamə və qərarlar qəbul etdiklərini, Ermənistanın onlara məhəl qoymadığını qeyd edən Azərbaycan Prezidenti bütün bu sənədlərin kağız üzərində olduğunu və qaçqın və məcburi köçkünlərimizin hələ də doğma torpaqlarına qayıda bilmədiklərini qeyd edir.

Konfransda Azərbaycan Prezidenti Azərbaycanın inkişaf və tərəqqi yolu ilə getdiyini diqqətə çəkərək, 1993-cü ildən başlanan siyasi, iqtisadi islahatlar, beynəlxalq arenada rolumuzun artması, ölkə daxilində bütün qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi, vətəndaş müharibəsinin dayandırılması, yeni konstitusiyanın qəbul edilməsi və ölkəmizin strateji inkişafı ilə bağlı çox dəqiq qərarlar xalqımızı ağır vəziyyətdən çıxara bildiyini və bu gün də Azərbaycanın uğurla inkişaf etdiyini vurğulayıb. Bu gün 26 ildir müstəqil dövlət kimi yaşayan Azərbaycanın ayaqda möhkəm dayandığını bildirən Cənab İlham Əliyev bizim əsas problemimizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olduğunu diqqətə çəkib: “Bildiyiniz kimi, Ermənistan beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımızın 20 faizini 20 ildən çoxdur ki, işğal edib. Bu torpaqlardan bir milyondan çox vətəndaş qovulub, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər qanlı cinayət - Xocalı soyqırımını törətmişlər. Erməni quldurları tərəfindən 600-dən çox günahsız, dinc insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq qətlə yetirilmişdir. Xocalı soyqırımını 10-dan çox ölkə artıq soyqırımı kimi tanıyıb”.

Cənab Prezident bir daha BMT-nin münaqişə ilə bağlı dörd qətnamə qəbul etdiyini və bunlara hələ də əməl olunmadığın diqqətə çatdırıb: “Belə olan halda, münaqişə yalnız və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, BMT Təhlükəsizlik Şurasının qətnamələri, - bu sənədlərdən daha üstün sənəd dünyada yoxdur, - tam icra edilməlidir və ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan dövləti və Azərbaycan xalqı öz torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək”.

Bu gün Azərbaycanın haqlı mövqey dünya dövlətləri tərəfindən dəstəklənir. Əlbəttə ki, Azərbaycanın bugünkü iqtisadi gücünün, inkişafının və milli ordusunun olması onun öz torpaqlarını işğaldan azad etməyə qadir olduğunu göstərir. Ötən ilin aprel döyüşləri bunun əyani sübutudur. Artıq bu gün işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndi yaşayış üçün yararlı vəziyyətdədir. Burada tikilmiş 50 ev, məktəb, yol və bütün infrastruktur Azərbaycanın iqtisadi gücünün göstəricisidir. Hətta burada Şuşa memarlığı üslubunda nəfis və əzəmətli məscid inşa olunub.

Bəli, qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycandan əxz ediləcəyi çox məqamlar var. Terrorizmin baş alıb getdiyi dünyada, islama qarşı hücumların artdığı və islamofobiyanın gücləndiyi bir vaxtda Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. Belə ki, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

Əminliklə deyə bilərik ki, “İslam Həmrəyliyi İli”nin yekunlarına həsr olunmuş beynəlxalq konfrans müsəlman ölkələrinin əməkdaşlığının möhkəmlənməsinə, dinlərarası və mədəniyyətlərarası dialoqun genişlənməsinə öz layiqli töhfəsini verəcək. İslam mədəniyyətinin və əxlaqının gələcək nəsillərə daha da yaxşı aşılanması üçün görülən işlər, islam həmrəyliyi çağırışı bəşəriyyətin ehtiyac duyduğu müasir dövrümüzün ən əhəmiyyətli məsələsidir. Belə tədbirlərin keçirilməsi isə ölkəmizin bəşəri dəyərlərə, dünyada gedən proseslərə bir töhfəsidir. Cənab İlham Əliyevin vurğuladığı kimi, “Ümumi məqsədimiz ondan ibarətdir ki, dünyada sülh, qarşılıqlı hörmət, qarşılıqlı anlaşma olsun, ölkələr bir-birinin işinə qarışmasın”.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Rəsmi xronika

Prezident İlham Əliyev “Azərbaycan Respublikasında 2018-ci il üçün yaşayış minimumu haqqında” qanunu təsdiq edib. Qanuna əsasən, 2018-ci il üçün yaşayış minimumu ölkə üzrə 173 manat, əmək qabiliyyətli əhali üçün 183 manat, pensiyaçılar üçün 144 manat, uşaqlar üçün 154 manat məbləğində müəyyən edilir. Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

***

Prezident İlham Əliyev “Azərbaycanda 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında” qanunu təsdiq edib. Qanuna əsasən, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2018-ci il üçün ehtiyac meyarının həddi 130 manat məbləğində təsdiq edilir. Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

***

Prezident İlham Əliyev “Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 661 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 1599 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

## Moldovanın nüfuzlu xəbər portalında Azərbaycan Prezidentinə həsr olunan məqalə dərc edilib

***Moldovanın nüfuzlu xəbər portalında Azərbaycan Prezidenti İlham Əliyevin ad günü münasibətilə məqalə dərc edilib.***

Azərbaycanın Moldovadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bu ölkənin “Tribuna” xəbər portalında dərc olunan məqalədə öz xalqının lideri, istedadlı islahatçı İlham Əliyevin müdrik və dərin düşünülmüş uğurlu daxili və xarici siyasətindən bəhs edilir. O cümlədən məqalədə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən qlobal enerji və nəqliyyat layihələri, qeyri-neft sektorunun inkişafı, Azərbaycanda idmana göstərilən diqqət və ölkəmizdə keçirilən beynəlxalq miqyaslı idman tədbirləri haqqında danışılır.



TRIBUNA НОВОСТИ КОММЕНТАРИЙ ИНТЕРВЬЮ РЕЙТИНГ ЧЕЛОВЕК НЕДЕ

ВАЖНО 24 Декабря 2017 19:04

СЕГОДНЯ ОТМЕЧАЕТ ДЕНЬ РОЖДЕНИЕ ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНА ИЛЬХАМ АЛИЕВ

Сегодня отмечает день рождение Президент Азербайджана Ильхам Алиев. Это признанный лидер своего народа, талантливый реформатор, который с мудростью глубоко продуманной политической линией отстаивает интересы своей страны на геополитическом пространстве.

В результате продуманной и дальновидной политики Президента Ильхама Алиева динамично и стремительно развивается экономика Азербайджана. За минувшие 14 л Азербайджане были созданы свыше 1 миллиона 800 тысяч новых рабочих мест, урс бедности снизился с 50 до 5 процентов, экономика Азербайджана, выросла в 3,4 р промышленное производство – в 2,7 раза, сельское хозяйство – в 1,5 раза. В эконом страны были вложены инвестиции в размере 180 миллиардов долларов. Под руководством Ильхама Алиева сегодня в Азербайджане во всех сферах наблюдают развитие и стабильность, а страна занимает достойное место на мировой арене.

Известно, что в Азербайджане главой государства успешно претворяется в жизнь энергетическая политика. Энергетические проекты, реализуемые в Азербайджане,

Həmçinin müəllif yazır: “Prezident İlham Əliyevin uğurlu uzaqgörən xarici siyasəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu yüksəlib. Azərbaycan bütün ölkələrlə münasibətləri mehriban qonşuluq və səmimi tərəfdaşlıq əsasında qurur, bu tərəfdaşlığa sadiqliyini nümayiş etdirir”.

Sonda müəllif Prezident İlham Əliyevin fəaliyyət modelinin bütün dünyada uğurlu inkişafın və müasirləşmənin nümunəsi kimi tanındığını qeyd edir. Bütün bunların Azərbaycanın gələcək inkişafı və Azərbaycan xalqının əmin-amanlığı üçün əhəmiyyətli əsas olduğunu bildirir.

***Emil Hüseynli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Kişineu***

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Moskvada Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilib

***Xəbər verdiyimiz kimi, Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edib.***

AZƏRTAC xəbər verir ki, dekabrın 26-da Moskvadakı Xilaskar İsa Məbədində Azərbaycanın Birinci vitse-prezidentinə ordenin təqdim edilməsi mərasimi keçirilib.

Əvvəlcə Moskvanın və bütün Rusiyanın patriarxı Kirillin Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif olunması haqqında Fərmanı oxundu.







Sonra Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordenini təqdim etdi. Patriarx Kirill mərasimdə çıxış edib:

-Mən Sizə gördüyünüz işlərə görə səmimi qəlbdən təşəkkür etmək istərdim. Siz ölkənizin və xalqınızın həyatında çox mühüm rol oynayırsınız. Böyük istedada və gözəl mənəvi keyfiyyətlərə malik bir insan kimi Siz Vətəninizdən uzaqlarda da bir çox işlər görürsünüz. Bu gün Sizə Rus Pravoslav Kilsəsinin fəaliyyətinə köməyə və Həştərxan şəhərinin həyatında xüsusi iştirakınıza görə mükafat təqdim edilib. Həştərxana səfər edəndə mənə bir çox işlər barədə danışdılar. Amma yəqin ki, ən çox Sizin haqqınızda və bu şəhər üçün gördüyünüz bir çox işlər barədə danışdılar. Məhz buna görə Həştərxanda olarkən mən Sizi Rus Pravoslav Kilsəsinin Müqəddəs Mələksima Knyaginya Olqa ordeninə layiq görülməyiniz barədə qərar qəbul etdim. Knyaginya Olqa Rusiyanı xristianlaşdıran və vahid rus dövlətinin qurulmasında həlledici rol oynayan Knyaz Vladimirin nənəsi olub.

Mən Sizə təşəkkürümü bildirərək Tanrıdan işlərinizə kömək, Sizə və möhtərəm həyat yoldaşınıza möhkəm cansağlığı, siyasi və peşəkar fəaliyyətinizdə uğurlar, bütün Azərbaycan xalqına firavanlıq diləmək istərdim. Bu görüşümüzə, Sizə öz ehtiramımı, minnətdarlığımı bildirmək və bu yüksək mükafatı təqdim etmək imkanına görə ürəkdən şadam.

***

Daha sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə çıxış edərək bildirib ki Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir:

-Sağ olun, Zati-müqəddəsləri. Belə fəxri mükafata və fəaliyyətimi bu cür yüksək qiymətləndirdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Bu ordeni mənə Siz təqdim etdiyinizə görə xüsusi fərəh duyuram. Sizə səmimi qəlbdən təşəkkür edirəm, Sizə və Sizin yüksək missiyanıza sonsuz hörmətimi ifadə edirəm. Siz insanlara dini və mənəvi, düzgünlük və ədalət, humanizm və şəfqət, yaxşılıq etmək, adamlara kömək göstərmək kimi fundamental bəşəri dəyərləri çatdırırsınız. Biz Azərbaycanda Sizin ölkəmizə səfərinizi çox yaxşı xatırlayırıq. Biz Sizin mədəni və mənəvi irsin qorunmasındakı xidmətlərinizi, cəmiyyətdə qarşılıqlı anlaşmanın, qarşılıqlı hörmətin və həmrəyliyin bərqərar olmasına yönələn fəal sülhpərvər və maarifçilik fəaliyyətinizi yüksək qiymətləndiririk. Paytaxtımıza son səfəriniz zamanı Siz Təzəpir məscidini ziyarət etdiniz və Bakıdakı Müqəddəs Mirodaşıyan kafedral kilsəsində ibadət etdiniz. Bununla da Siz bir daha vurğuladınız ki, istənilən etiqad, istənilən din insanları birləşdirməyə və barışdırmağa xidmət edir.

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir. Multikulturalizm, qarşılıqlı hörmət xalqımızın dünyagörüşünün və Azərbaycan hökumətinin dövlət siyasətinin əsasını təşkil edir. Azərbaycan torpağında müxtəlif konfessiyaların, müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələri əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayıblar. Ölkəmizin ərazisində yaşayan bütün xalqların bu mədəni müxtəlifliyi, heç şübhəsiz, bizim sərvətimizdir. Bu sözlər, rus pravoslav icmasına da bütünlüklə aiddir. Bu gün Azərbaycanda Rus Pravoslav Kilsəsinə mənsub olan dindarların sayı 100 mindən çoxdur.

Son illər Azərbaycan dünyada tanınmış millətlərarası, dinlərarası və sivilizasiyalararası dialoq mərkəzlərindən birinə çevrilib. Ölkəmizin paytaxtında müntəzəm surətdə qarşılıqlı anlaşmaya və qarşılıqlı hörmətə nail olmağa yönəlmiş nüfuzlu beynəlxalq forumlar keçirilir. 2010-cu ildə bizim Vətənimizin paytaxtında Sizin də fəal iştirakınızla Dünya Dini Liderlərinin Ümumdünya Sammiti keçirildi. 2016-cı ildə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu baş tutdu. Bu il dekabrın 21-də "İslam Həmrəyliyi İli"nin yekunlarına həsr edilmiş konfrans keçirildi və bu konfransın mövzusu yenə də xalqlar arasında, müxtəlif dinlərin nümayəndələri arasında dialoqun qurulması idi. Fürsətdən istifadə edib, bu konfransa göndərdiyiniz məktuba və Rus Pravoslav Kilsəsinin yüksək səviyyədə təmsil olunmasına görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

Biz öz köklərinə, öz ənənələrinə, öz tarixinə çox hörmət edən ölkəyik. Lakin bununla bərabər, Azərbaycan dünyaya açıq ölkədir. Biz başqa dövlətlərlə, başqa ölkələrlə dostluq münasibətləri qurmaq istəyirik və bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər mehriban qonşuluq, qarşılıqlı hörmət və dostluq əsasında qurulur. Azərbaycan və Rusiya strateji tərəfdaşlardır və əlbəttə ki, bizim humanitar sahədə əməkdaşlığımız bu tərəfdaşlığın çox mühüm hissəsidir. Bizim çox böyük ortaq mədəni irsimiz var və humanitar sahədə əməkdaşlığımız hələ Azərbaycan və Rusiya eyni dövlətin hissələri olduğu illərdə formalaşıb. Çox sevindirici haldır ki, Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra bu potensialı nəinki itirməyib, hətta əksinə, çoxaldıb. Bu gün Azərbaycanda böyük rus ədəbiyyatına və mədəniyyətinə tükənməz maraq var. Məktəblərdə rus dilinin öyrənilməsi tam həcmdə saxlanılıb. Bizim ölkəmizdə təhsil prosesinin tamamilə rus dilində olduğu 300 məktəb, hətta 300-dən çox məktəb fəaliyyət göstərir. Paytaxtda Azərbaycan Dövlət Rus Dram Teatrı, Slavyan Universiteti fəaliyyətdədir. Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filiallarının açılması meyli yaranıb - bizdə Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı çox uğurla fəaliyyət göstərir. Bu, bizim uğurlu əməkdaşlığımızın daha bir nümunəsidir.

Həştərxan vilayəti ilə bizim çox səmimi dostluq münasibətlərimiz var. Bu vilayət bizim dostumuz, qonşumuzdur və burada uğurlu əməkdaşlıq nümunələri çoxdur. 2013-cü ildə Müqəddəs Mələksima Knyaz Vladimirə abidə ucaldılması, bu abidənin açılışı bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Bu abidənin yaradılması üzərində Azərbaycanın ən yaxşı rəssamları və memarları çalışıb. Onlar bir il ərzində bizim Rus Pravoslav Kilsəsinə dərin hörmət və ehtiramımızı ifadə edən möhtəşəm monument yaratdılar.

Zati-Müqəddəsləri, səmimiyyətinizə, mehribanlığınıza görə Sizə bir daha ürəkdən təşəkkür etmək, öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Fürsətdən istifadə edib, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sizə səmimi salamını və ölkəmizə yenidən səfər etməyə dəvətini çatdırmaq istəyirəm. Sizə əmin-amanlıq, firavanlıq, möhkəm cansağlığı və xoşbəxtlik arzu edirəm. Çox sağ olun.

***

Patriarx KİRİLL: Çox sağ olun. Bu səmimi və çox düzgün, gərəkli, dəyərli informasiya ilə dolu sözlərinizə görə Sizə təşəkkür edirəm.

Birinci vitse-prezident Mehriban Əliyeva: Sağ olun.

***



Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Xilaskar İsa Məbədi ilə tanış oldular. Bu məbəd Rus Pravoslav Kilsəsinin baş məbədidir. XIX əsrdə inşa edilmiş məbəd ötən əsrin 90-cı illərində yenidən bərpa olunub. Hazırda məbəddə Rusiya üçün dini baxımdan əhəmiyyətli tədbirlər keçirilir.

Xatırladaq ki, 1988-ci ildə Rusiyada xristianlığın qəbul edilməsinin 1000 illiyi ilə əlaqədar təsis olunan Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskva ali məktəblərinin tələbələri arasında intellektual oyun keçirilib







***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskva Ali Məktəblərinin tələbələri arasında intellektual oyun keçirilib. Rusiyanın Azərbaycanlı Gənclər Birliyi (RAGB) tərəfindən Rusiya İntellektual Oyunlar Assosiasiyasının dəstəyi ilə təşkil olunmuş və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilmiş tədbirdə Rusiya ali məktəblərinin tələbələrindən ibarət 16 komanda iştirak edib.***

AZƏRTAC xəbər verir ki, RAGB İdarə heyətinin üzvü Emin Hacıyev Heydər Əliyev Fondunun vitse-prezidenti, RAGB-nin sədri Leyla Əliyevanın tədbir iştirakçılarına təbrikini və ən xoş arzularını çatdırıb. E.Hacıyev deyib: "Bu cür turnirlər bizim gənclər arasında çox populyardır. Bu, həmin gənclərin intellektual baxımdan inkişafına və komanda şəklində işləmək bacarığına dəlalət edir. Gələcəkdə biz RAGB-nin sədri Leyla Əliyevanın dəstəyi ilə çoxlu belə turnirlər keçirməyi planlaşdırırıq. Sevindirici haldır ki, bu gün müxtəlif beynəlxalq intellektual turnirlərdə bizim təşkilatı təmsil etmək üçün layiqli komandalarımız var".

Oyunda Moskva Dövlət Linqvistika Universitetinin (MDLU) Azərbaycan klubunun komandası qalib gəlib. Turnirin üç ən yaxşı oyunçusu adına M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Azərbaycan klubu komandasının iştirakçısı Viktoriya Kalyadina, MDLU-nun Azərbaycan klubu komandasının oyunçusu Aleksandra Şemelinina və G.V.Plexanov adına Rusiya İqtisad Universitetinin komandasının nümayəndəsi Leyla Carçıyeva layiq görülüb.

"Qələbə əzminə görə" nominasiyasında İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin "Dr. Brain" komandası qalib gəlib. "Avisenna" komandasının lideri Bəyaz Gözəlzadə ən yaxşı kapitan hesab edilib. Qaliblərə sertifikatlar və xatirə suvenirləri təqdim olunub.

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

## Müdafiə naziri ön xətdə əsgər yataqxanasının açılışında iştirak edib





Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti düşmənlə təmas xəttindəki mövqelərdə döyüş növbəsi çəkən əsgərlərlə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməliyyat şəraiti barədə məruzə edildikdən sonra general-polkovnik Z.Həsənov səngərlərdə hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, sosial-məişət şəraiti ilə maraqlanıb.

Sonra müdafiə naziri ön xətdə xidmət edən hərbçilər üçün yeni inşa edilən əsgər yataqxanasının açılışında iştirak edib və burada yaradılan şəraitlə tanış olub. Qarşıdan gələn bayramlar münasibətilə Ali Baş Komandanın təbrikləri şəxsi heyətə çatdırılıb, xidmətdə fərqlənənlərə dövlətimizin başçısı adından mükafatlar və bayram hədiyyələri təqdim edilib. Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha şəxsi heyətin diqqətinə çatdıran müdafiə naziri hərbi qulluqçuların döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

## XİN açıqladı: "Rusiyalı fotoqrafın adı "Arzuolunmaz şəxslər siyahısı"ndan çıxarılıb"



Rusiya Federasiyası vətəndaşı, fotoqraf və bloqer Vladimir Kezlinq Azərbaycan Respublikasının Sankt-Peterburq şəhərindəki baş konsulluğuna məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib. Məktubunda V.Kezlinq Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü, suverenliyi və qanunlarına hörmət etdiyini bildirib. O, Azərbaycan hökumətinin müvafiq razılığı olmadan, Azərbaycanın işğal edilmiş ərazilərinə səfərinin hər hansı bir siyasi məqsəd güdmədiyini vurğulayıb.

V.Kezlinq Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinə səfərin heç bir halda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təşviqinə xidmət etmədiyini bildirib və işğal olunmuş ərazilərə qanunsuz səfərlə əlaqədar Azərbaycan hökuməti və xalqından üzr istədiyini bildirib. Rusiyalı fotoqrafın müraciəti müvafiq qaydada nəzərdən keçirilib və onun adının "Arzuolunmaz şəxslər siyahısı"ndan çıxarılmasına dair qərar qəbul edilib.

## Dekabrın 31-də Bakı metrosu gecə saat 1-ə qədər fəaliyyət göstərəcək

Dekabrın 31-də Bakı metrosu gecə saat 01:00-dək fəaliyyət göstərəcək AZƏRTAC xəbər verir ki, bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev deyib. O bildirib ki, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar olaraq Bakı metrosu gecə saat 01:00-ə qədər fəaliyyət göstərəcək.

N.Paşayev qeyd edib ki, həmçinin bayram ərəfəsində metroda yeni il posterləri vurulacaq, sərnişinlər üçün konsert proqramı, balaca sərnişinlər üçün isə hədiyyələr təşkil olunacaq.

# Əli Həsənov: “Mətbuat dövlətlə cəmiyyət arasında körpü rolunu oynayır”

*Fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülən media nümayəndələri mükafatlandırılıb*




**Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülən media nümayəndələrinin mükafatlandırılması mərasimi keçirilib.**




AZƏRTAC xəbər verir ki, dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri və




müsabiqənin qalibi olan jurnalistlər iştirak ediblər.

KİVDF-nin icraçı direktoru Vüqar Səfərli qonaqları və media təmsilçilərini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib.

O, bu ilin Azərbaycan üçün uğurlu olduğunu, IV İslam Həmrəyliyi Oyunları keçirildiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verildiyini diqqətə çatdırıb. “İslam Həmrəyliyi İli” ilə bağlı KİVDF tərəfindən keçirilən tədbirlərdən danışan V.Səfərli bu ilin həm də jurnalistlər üçün ikinci binanın istifadəyə verilməsi, 255 jurnalistin mənzillə təmin olunması, eyni zamanda, jurnalistlər üçün üçüncü binanın təməlinin qoyulması ilə yadda qaldığını deyib. KİVDF-nin icraçı direktoru Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təşkil edilən son müsabiqəyə də marağın böyük olduğunu vurğulayıb. Bildirib ki, müsabiqəyə 66 KİV-dən 19 istiqamət üzrə 153 yazı təqdim edilib. Hər istiqamət üzrə birinci, ikinci və üçüncü yerlər üçün müvafiq olaraq 500, 400 və 300 manat mükafat nəzərdə tutulub.




Sonra mərasimdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edib. Prezidentin köməkçisi Azərbaycanda medianın inkişafı istiqamətində görülən işlərdən danışıb. 2017-ci il “İslam Həmrəyliyi İli” elan olunduğunu diqqətə çatdıran Əli Həsənov deyib ki, başa çatmaqda olan ildə islam ölkələri arasında həmrəyliyi gücləndirmək üçün Azərbaycan tərəfindən xaricdə və ölkə daxilində mühüm tədbirlər keçirilib. Bu sırada İslam Həmrəyliyi Oyunlarını xüsusi qeyd etmək lazımdır.

Prezidentin köməkçisi Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü bütün dünyada yaşayan soydaşlarımızın birliyinə nail olunması üçün mühüm amil kimi dəyərləndirib. Azərbaycanda dövlət ilə xalqın birliyinə nail olunmasında medianın rolundan danışan Əli Həsənov deyib ki, mətbuat dövlətlə cəmiyyət arasında körpü rolunu oynayır.

Yola saldığımız ilin jurnalistika üçün uğurlu olduğunu vurğulayan Əli Həsənov deyib: “Medianın maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin peşəkarlığının artırılması 2018-ci ildə də davam etdiriləcək. 2017-ci ildə 255 jurnalist ailəsi yeni mənzillə təmin olundu. Prezident İlham Əliyevin vurğuladığı kimi, jurnalistlərə qayğı davam etdiriləcək”. Əli Həsənov qeyd edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı törədilən Xocalı və digər soyqırımları barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması 2018-ci ildə də KİV-in diqqət mərkəzində olmalıdır.

Sonra müsabiqədə birinci yeri tutan jurnalistlərə mükafatlar təqdim edilib.

Daha sonra Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxış edərək 2017-ci ildə Azərbaycan mediasının daha da püxtələşdiyini, peşəkarlığının artdığını söyləyib. Azərbaycan jurnalistlərinin Prezident İlham Əliyevi ad günü münasibəti ilə təbrik etdiyini xatırladan Ə.Amaşov mətbuat nümayəndələri adından dövlətimizin başçısını bir daha təbrik edərək deyib: “2018-ci ildə Azərbaycanda növbəti prezident seçkiləri keçiriləcək. İnanıram ki, Prezident İlham Əliyev yenidən namizədliyini irəli sürəcək. Əminəm ki, Azərbaycan jurnalistləri mətbuatımızın dostu olan Prezident İlham Əliyevin namizədliyini bu seçkilərdə də dəstəkləyəcəklər”.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral 2017-ci ilin Azərbaycanın İslam həmrəylinə töhfəsi baxımından mühüm il olduğunu söyləyib. O, qarşıdan gələn ilin Azərbaycan üçün daha uğurlu olacağına inandığını deyib. Səfir Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan jurnalistlərinə təbriklərini çatdırıb. Tədbir bədii hissə ilə davam edib.

# ARAF ilin yekunları ilə bağlı tədbir keçirib







Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Binə Atçılıq mərkəzində keçirilən tədbirdə mövsümün yekunları müzakirə olunub. SİA-nın məlumatına görə, əvvəlcə qonaqlara 2017-ci ilin yarışlarını əks etdirən videoçarx göstərilib.



Daha sonra Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev ili yüksək nailiyyətlərlə başa vuran idmançılara, məşqçilərə, hakimlərə və digər mütəxəssislərə fəxri diplomlar, habelə mukafatlar təqdim edib. Mükafatlandırma mərasimində çıxış edən federasiya prezidenti Azərbaycan atçılığının intibah dövrü yaşadığını, Respublikada yeni idman qurğularının tikildiyini və bu idman növünün inkişaf etdiyini xüsusi vurğulayıb. E.Quliyev bütün nailiyyətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu idman növünə göstərdiyi diqqət və qayğının nəticəsi kimi dəyərləndirib.

Ardınca tədbirdə atçılığın cıdır və konkur növləri üzrə müxtəlif turnirlərin, xüsusən də Beynəlxalq yarışların müvəffəqiyyətlə təşkil olunduğu xatırlanıb. Çövkən oyunu üzrə Prezident Kuboku turnirinin uğurla keçirildiyi və bu idman növünün kütləvi xarakter aldığı bildirilib. Azərbaycanda Polo üzrə keçirilən Beynəlxalq turnirin də əhəmiyyəti qeyd olunub. İlin yekunlarına həsr olunan tədbir bədii proqramla başa çatıb.

# Novruz Məmmədov: "2017-ci il Azərbaycan üçün ən uğurlu illərdən olub"

*SƏS TV Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri Novruz Məmmədovun müsahibəsini təqdim edir:*

***- Novruz müəllim, Prezident İlham Əliyevin Azərbaycan xalqı və dövləti üçün gördüyü mühüm işləri ümumilikdə necə xarakterizə etmək olar?***



- Hazırda dünyada müəyyən maraqlar uğrunda mübarizə dövləti çətin vəziyyətdə qoyur. Bu, kiçik dövlətlərin qarşılarına qoyduğu məqsədi həyata keçirməsinə çətinlik yaradır. Buna baxmayaraq, 2017-ci il Azərbaycan üçün ən uğurlu illərdən olub. Bu il Prezident tərəfindən Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdi. İslam həmrəyliyi və sivilizasiyalararası dialoq bir-biri ilə bağlıdır. Azərbaycan tərəfindən bu istiqamətdə bir sıra addımlar atılıb. Konfranslar, seminarlar, forumlar keçirilib. Dünyadan yüksək səviyyəli nümayəndələr bu tədbirlərdə iştirak ediblər. Bu onunla bağlıdır ki, Azərbaycanın daxilində digər məsələlər həllini tapıb və bu, imkan verib ki Azərbaycan bu kimi məsələlərə öz töhfəsini versin. Bu, beynəlxalq münasibətlərdə sabitliyə, təhlükəsizliyə töhfə vermək üçün nümunədir.

2017-ci ilin ən böyük hadisələrindən biri kimi Bakı-Tbilisi-Qars dəmiryol xəttinin açılışını qeyd edə bilərik. Bu, Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolunun mühüm tərkib hissəsi, Azərbaycan üçün beynəlxalq əməkdaşlığa yol açan, sabitlik və təhlükəsizliyə zəmanət verən layihədir. Fəxrlə deyə bilərəm ki, Azərbaycan bu layihəni yerinə yetirdi. Biz bunun nə dərəcədə əhəmiyyətli olduğunu, Azərbaycana, regiona və beynəlxalq əməkdaşlığa hansı töhfələri verəcəyini görəcəyik.

Bu il ərzində ölkənin xarici siyasətində ən mühüm hadisələrdən biri kimi Azərbaycan Prezidentinin Brüsselə səfərini göstərmək olar. Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni əməkdaşlıq sənədinin hazırlanmasına start verildi və müəyyən müddəalarla bağlı razılaşma əldə edildi. Bu, çox böyük hadisədir.

***- 2017-ci ildə ciddi uğurların, nailiyyətlərin olduğunu dediniz, 2018-ci il də uğurlar sessiyasına Dağlıq Qarabağ münaqişəsinin həllində sülhün əldə olunması əlavə oluna bilər? Bu məsələdə proqnozlarınızı bilmək istərdik.***

- Ermənistan tərəfi danışıqlar prosesini yubatmaq üçün əlindən gələni edir. Bu gün dünyada çox böyük bir gərginlik var və bu gərginlik ATƏT-in Minsk Qrupunun üzvlərini də narahat edir. Bu nöqteyi-nəzərdən, müəyyən mənada demək olar ki, Dağlıq Qarabağ münaqişəsinin həllinə sanki diqqət azalıb. Buna baxmayaraq son vaxtlar həmsədrlərin regiona səfərləri baş tutdu, Azərbaycan Prezidenti ilə görüşləri oldu, həmçinin Avropa İttifaqının və ATƏT-in nümayəndələrinin Azərbaycan Prezidenti ilə görüşləri keçirildi və onlar nümayiş etdirdilər ki, Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı proseslər gedir. Eyni zamanda, Rusiya rəhbərinin bəyanatı oldu. Yeni proseslər gedir, ancaq Ermənistan tərəfi həmişə danışıqlar prosesini yubatmağa çalışır və bunun üçün əlindən gələni edir.

Beynəlxalq hüquq prinsiplərinə əməl edilmədiyi halfda dünyada sabitlikdən, inkişafdan danışmaq olmaz. Ədalət prinsipinə riayət etmək lazımdır. O zaman dünyada sabitlik, təhlükəsizlik bərqərar olar, daha güclü inkişaf gedər.

***- "Şərq Tərəfdaşlığı" sammitində qəbul edilən bəyannamə Azərbaycanın böyük qələbəsi hesab edilə bilərmi?***

- Sammitdə qəbul edilən bəyannamə Azərbaycanın böyük qələbəsidir. Bu gün dünyada çatışmayan bir şey var - ədalət, beynəlxalq hüquq bir tərəfə atılıb. Belə olan halda böyük müharibə təhlükəsi daha da yaxınlaşır. Gərək bu dövlətlərin rəhbərləri, ictimaiyyəti daha həssas olsunlar və ədalət prinsipindən uzaq olmasınlar. Avropa İttifaqı gözləməli idi ki, Avropada separatizmlə bağlı hadisələr baş verəndən sonra belə qərar qəbul etsin?! Bunu çoxdan etmək lazım idi. Yoxsa "hər hansı bir Avropa ölkəsində separatizm baş qaldırıbsa, gəlin, bununla bağlı qərar verək" prinsipi düzgün deyil. Dağlıq Qarabağ münaqişəsi SSRİ dağılandan sonra yaranan ilk münaqişələrdən biri idi və əgər bu münaqişə ilə bağlı vaxtında konkret və ədalətli mövqe olsaydı, bu problem həllini tapsaydı, digər münaqişələr olmazdı. Bütün dünya görəcəydi ki, beynəlxalq hüquqdan kənara çıxıb bir addım atacaqsansa, bunun perspektivi yoxdur. Amma görürlər ki, bir münaqişə var və illərlə uzanır, həllini tapmır və belə olan halda münaqişələrin sayı artır.

Bu ilin noyabrında Brüsseldə "Şərq Tərəfdaşlığı" sammiti çərçivəsində qəbul edilən bəyannamədə ölkələrin ərazi bütövlüyü və suverenliyinə dəstək böyük əhəmiyyət daşıyır. Bu, əslində Azərbaycan tərəfinin münaqişənin həlli istiqamətində gedən proseslərdə böyük qələbəsidir. Əgər indiyə kimi Avropa ölkələrinin mövqeyində ikili yanaşmalar olurdusa, bundan sonra olmayacaq. Bu, ATƏT-in Minsk Qrupu həmsədrlərinin də məsələnin həllinə diqqətini gücləndirəcək.

Bu il ərzində ölkənin xarici siyasətində ən böyük hadisələrdən biri Azərbaycan Prezidentinin Brüsselə səfəri oldu. Orada Avropa İttifaqı ilə Azərbaycan arasında yeni əməkdaşlıq sənədinin hazırlanmasına start verildi və müəyyən müddəaları ilə bağlı razılaşma əldə edildi. Bu, çox böyük hadisədir. Azərbaycanın məqsədi qarşılıqlı surətdə və faydalı əməkdaşlıq etməkdir.

***- Avropada separatizm təhlükəsi daha böyük vüsət alıb. Sizin buna münasibətiniz necədir?***

- Bu dünyada bu gün çatmayan bir ədalət var. Beynəlxalq hüquq sanki kənara atılıb. Bunun konkret nümunəsi tək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi deyil. Bütün məsələlərdə bunu görmək olur. Bütün dövlətlər öz imkanlarından istifadə edib demək istəyir ki, mən buyam və bu məsələni belə həll etməliyəm. Bu, ən böyük təhlükədir. Böyük müharibə təhlükəsi daha da yaxınlaşır. 21-ci əsrin ikinci onilliyində bu dövlətlər, onların rəhbərləri müəyyən ictimaiyyət nümayəndələri daha diqqətli olmalıdırlar. Ədalət prinsipindən uzaqlaşmaq olmaz. Ədalət prinsipi yoxdursa, universal dəyərlər yalnız sözdən ibarət olacaq. Niyə Avropada gözləməli idilər ki, onlarda separatizmlə bağlı hadisə baş versin və daha sonra onlar ədalətli mövqe göstərsinlər? Bu səhv yanaşmadır. İlk vaxtlardan ədalətli mövqe sərgiləmək lazım idi. Beynəlxalq hüquqa, müvafiq sənədlərə, qətnamələrə onlara riayət etmək lazımdır. Aİ ölkəsində separatizm baş qaldırandan sonra qərar verirlər ki, separatizmlə mübarizə aparaq. Bu düzgün deyil. Münaqişə başlayan zaman Dağlıq Qarabağ məsələsi ilə bağlı konkret mövqe olsaydı, ədalətli mövqe nümayiş etdirilsəydi, digər münaqişə ocaqları yaranmazdı. Bütün dünya birliyi görəcəkdi ki, beynəlxalq hüquq çərçivəsindən kənar addım atılanda, bunun perspektivi olmayacaq. Avropada separatizm təhlükəsi daha böyükdür. Ən azı orada ən böyük hadisə - II Dünya müharibəsi olub və bu proseslə bağlı çoxlarının ürəklərində müəyyən hisslər qalıb. Ona yaxın Avropa ölkəsində konkret problemlər var, sakitcə gözləyirlər ki, imkan düşən kimi ciddi addımlar atsınlar. Onların qarşısını güclə almaq mümkün olmayacaq. Faciə bundan ibarətdir. Ədalət prinsipinə riayət etmək lazımdır. O zaman dünyada təhlükəsizlik, sabitlik, davamlı inkişaf təmin olunar.

***- Bildiyiniz kimi, Paraqvay parlamenti Xocalı soyqırımının tanınmasına dair bəyanat qəbul edib. Siz bunu necə şərh edərdiniz?***

- Paraqvay parlamentinin Xocalı soyqırımını tanıması Azərbaycanın növbəti uğuru kimi dəyərləndirilməlidir. Paraqvayda Azərbaycan haqqında məlumatlı olanlar, eləcə də bizim bu gün Paraqvay haqqında məlumatlarımız o qədər çox deyil. Bütün bunların hamısı müəyyən işin, prosesin, aparılan danışıqların, görülən işlərin nəticəsində ortaya çıxır. Bu nöqteyi-nəzərdən qeyd edə bilərəm ki, doğrudan da bu addım çox uğurludur. Nəhayət ki, bu ölkəyə də mövqeyimizi çatdıra bilmişik. Təbii ki, bu istiqamətdə işlər davam edir. Artıq Xocalı faciəsini soyqırımı kimi qəbul edən ölkələr çoxdur. Şübhəsiz ki, bu ölkələrin sayı getdikcə artacaq.

***- BMT Baş Assambleyası ABŞ-ın Qüdsü İsrailin paytaxtı kimi tanınmasına dair qərarının qəbuledilməz olması barədə qətnamə qəbul edib. Bu kimi mühüm beynəlxalq məsələlərin həllində Azərbaycanın nümayiş etdirdiyi mövqe beynəlxalq hüququn aliliyinə hörmətin, sülhün və təhlükəsizliyin, tolerantlığın möhkəmlənməsinə əməli töhfənin bariz nümunəsi sayıla bilərmi?***

- Qüds məsələsi BMT qətnamələri, beynəlxalq hüquq çərçivəsində həll olunmalıdır. Azərbaycan tərəfi İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı sammitində öz mövqeyini bildirdi. Biz bu məsələdə müsəlman ölkələri ilə bir yerdəyik. Qüdslə bağlı atılan addım beynəlxalq aləmdə gərginlik yaradıb. Bu addımın atılmasına ehtiyac yox idi. Bu, dünyada beynəlxalq münasibətlərə töhfə vermir, əksinə, vəziyyəti gərginləşdirir.

**Ceyhun RASİMOĞLU**





## Akademik Həsən Əliyevin 110 illik yubileyinə həsr olunmuş respublika elmi konfransı keçirilib

***Dünən AMEA-nın əsas binasında görkəmli təbiətşünas- alim, Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, akademik Həsən Əliyevin 110 illik yubileyi ilə əlaqədar respublika elmi konfransı keçirilib.***

İştirakçılar əvvəlcə foyedə alimin elmi və elmi-təşkilati fəaliyyətini əks etdirən sərgi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti, akademik Akif Əlizadə açaraq konfransın Prezident İlham Əliyevin "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına əsasən, təşkil olunduğunu bildirib.

Görkəmli alim Həsən Əliyevin elmə, təhsilə verdiyi töhfələrdən, bu sahələrin inkişafında əvəzsiz xidmətlərindən danışan AMEA rəhbəri Onun ölkəmizdə coğrafiya və torpaqşünaslıq elmlərinin yeni istiqamətlərinin müəyyənləşməsində böyük rolu olduğunu deyib. Diqqətə çatdırıb ki, akademik Həsən Əliyev zəngin elmi fəaliyyəti müddətində, təbiətin mühafizəsinə dair kompleks proqram və layihələri uğurla həyata keçirib. Dünyanın bir sıra ölkələrində keçirilən müxtəlif konfranslarda, seminar və simpoziumlarda təmsil olunan alimin əsərləri elmi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanıb.

Tədbirdə AMEA-nın Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov təbiətşünas - alimin həyat və fəaliyyətinə dair məruzə ilə çıxış edib. Akademik Həsən Əliyevin keçdiyi çətin, lakin şərəfli ömür yolundan danışan institutun direktoru gənc alimlər üçün örnək olan bu ömrün yarım əsrdən çoxunun ölkəmizdə coğrafiya, torpaqşünaslıq elmlərinin inkişafına və ekologiya məsələlərinə həsr edildiyini diqqətə çatdırıb. R.Məmmədov qeyd edib ki, görkəmli alim hələ Sovet dövründə Azərbaycanda beynəlxalq bioloji proqramın işlənib - hazırlanmasında yaxından iştirak edib.

Tədbirdə ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırovun "Akademik Həsən Əliyev və Azərbaycanda təbiəti mühafizə" mövzusunda məruzəsi dinlənilib. Nazir təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onun mühafizəsinin təşkili sahəsində alimin fəaliyyəti barədə ətraflı məlumat verib. Həmçinin, Azərbaycan təbiətinin, xüsusilə, meşələrin qorunması, mühafizəsi və bərpası ilə bağlı gördüyü işlərdən danışıb. Bildirib ki, akademik Həsən Əliyevin əsərlərində qeyd olunan ekoloji problemlər və onların həlli yolları bütün dövrlər üçün öz aktuallığını saxlamaqdadır.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Akademik H.Əliyev və UNESCO-nun MAB fəaliyyəti" mövzusunda məruzəsini təqdim edib. Onun innovativ fəaliyyətinə toxunan məruzəçi akademikin UNESCO çərçivəsində "İnsan və Biosfer" Azərbaycan Milli Komitəsinin yaradılması təşəbbüsünü xatırladıb. Biomüxtəlifliyin qorunub saxlanması və davamlı inkişafının həyata keçirilməsində bu proqramın əhəmiyyətindən söz açıb.

Konfransda digər çıxış edənlər akademik Həsən Əliyev haqqında xatirələrini bölüşüb, Onun insanlara qayğıkeş münasibətindən, ölkəmiz üçün istedadlı kadrlar yetişdirməsindən, Azərbaycan təbiətinə və elminə verdiyi töhfələrdən bəhs ediblər.

Sonda görkəmli alimin fəaliyyətinə həsr olunan sənədli film nümayiş etdirilib.

**Zümrüd BAYRAMOVA**

# Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcək inkişafa və rifaha hesablanan düşünülmüş, məqsədyönlü siyasət həyata keçirilir

## *Milli Məclisin deputatı Tahir Süleymanovun yap.org.az-a müsahibəsi*

***- Tahir müəllim, 2017-ci il başa çatdı. Bu il Azərbaycan üçün hansı uğurlarla yadda qaldı?***

- Ümumiyyətlə, ölkəmizdə həyata keçirilən davamlı və məqsədyönlü siyasət sayəsində Azərbaycanın sosial-iqtisadi inkişafı o səviyyəyə çatıb ki, artıq ölkəmizin müsbət reallıqları beynəlxalq səviyyədə də etiraf edilir və yüksək qiymətləndirilir. Nüfuzlu Davos İqtisadi Forumunun bir müddət əvvəl yaydığı "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmiz daha iki pillə irəliləyərək 35-ci yerdə qərarlaşıb. Eyni zamanda, Dünya Bankının "Doing Business 2018" hesabatında da Azərbaycan yüksək qiymətə layiq görülüb. Belə ki, hesabatda respublikamız əvvəlki 65-ci pillədən 57-ci pilləyə yüksəlib.

Azərbaycanın uğurlarını şərtləndirən əsas amil ondan ibarətdir ki, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə daim gələcək inkişafa və rifaha hesablanan düşünülmüş, məqsədyönlü siyasət həyata keçirilir. Bu baxımdan, son 14 ildə dövlət başçısının siyasi iradəsi əsasında neft gəlirlərindən səmərəli istifadə edilməsinin və prioritet istiqamətlərə yönəldilməsinin önəmini xüsusi qeyd etmək lazımdır. Zamanında müvafiq siyasi və maddi dəstək tədbirləri hesabına qeyri-neft sektorunun inkişafı üçün fundamental əsaslar yaradılması yeni şəraitdə milli iqtisadiyyatımızın qlobal şoklara müqavimət gücünü artırır.

Eyni zamanda, xarici mənfi amillərin təsiri nəticəsində yaranan şəraitdə respublikanın yeni inkişaf hədəfləri müəyyənləşdirilib. Neftin aşağı qiymətləri dönəmində milli iqtisadiyyatımızda böhran meyillərinin uğurla dəf olunması və neftdənkənar sahələrin üstün inkişafının təmin edilməsi baxımından Prezident İlham Əliyevin yaranan yeni çağırışlara və ölkənin reallıqlarına uyğun qəbul etdiyi mühüm qərarlar, imzaladığı müvafiq Fərman və sərəncamlara əsasən ayrı-ayrı istiqamətlər üzrə həyata keçirilən islahatlar böyük aktuallıq daşıyır. İnstitusional sahə, biznes mühitinin daha da optimallaşdırılması, şəffaflığın artırılması, daxili istehsalın qorunması, ixracın və investisiyaların təşviqi də daxil olmaqla müxtəlif istiqamətləri əhatə edən islahatlar, o cümlədən Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixində imzaladığı Fərmanla təsdiqlənən milli iqtisadiyyat perspektivi və onun 11 sektoru üzrə strateji yol xəritələri yaxın, orta və uzunmüddətli dövrlərdə ölkəmizin hərtərəfli inkişafına hesablanıb. Bütövlükdə, ölkədə həyata keçirilən islahatlar perspektiv inkişaf üçün fundamental əsaslar yaradıb.



***- Hazırda qeyri-neft sektorunda istehsal imkanları genişlənir. Bu amilin üstünlükləri nədən ibarətdir?***

- Hər bir ölkənin uğurlu inkişafı ilk növbədə aparılan siyasətin məqsədyönlülüyündən və hədəflərin düzgün müəyyənləşdirilməsindən asılıdır. Bu gün ölkəmizin iqtisadiyyatı şaxələndirilir. Ötən illərdə möhkəm daxili sabitliyi ilə fərqlənən Azərbaycanda ölkəyə gələn böyük həcmlərdə neft gəlirləri məqsədyönlü şəkildə milli mənafe baxımından strateji mahiyyət kəsb edən irimiqyaslı infrastruktur layihələrinin, neftdənkənar iqtisadiyyat üzrə yeni proqramların reallaşdırılmasına yönəldilib. Ümumiyyətlə, respublikamız Prezident İlham Əliyevin möhkəm siyasi qətiyyəti sayəsində elə bir uğurlu iqtisadi inkişaf modeli seçib ki, burada neft amili heç də həlledici, dominant rol oynamır, əksinə, ağırlıq mərkəzi, çəkici qüvvə tədricən qeyri-neft sektoruna keçir.

Yeni iqtisadi şəraitdə Azərbaycan iqtisadiyyatının qlobal mənfi təsirlərə yüksək dayanıqlılıq nümayiş etdirməsi də ilk növbədə ölkəmizdə zamanında neftdənkənar sahələrin inkişafına münbit zəmin formalaşdırılması ilə bağlıdır. Məlumdur ki, müstəqillik illərində respublikamızda böyükhəcmli dövlət investisiyaları hesabına irimiqyaslı su, yol-nəqliyyat və digər layihələr reallaşdırılıb. Təkcə cari ildə dövlət vəsaiti hesabına 150 min hektardan çox ərazinin meliorativ vəziyyətinin yaxşılaşdırılması nəzərdə tutulub və bu proqram 2018-ci ildə də eyni intensivliklə davam etdiriləcək.

Son 14 ildə ölkə boyu 11 min kilometrdən çox yol çəkilməsi, 2400 meqavoltdan artıq istehsal imkanlarına malik 26 elektrik stansiyasının inşası, respublika miqyasında qazlaşdırmanın 93 faizə çatdırılması Azərbaycanın yüksək səviyyəli infrastruktur quruculuğuna göstərdiyi böyük diqqətin əlamətidir. Dövlət vəsaiti hesabına qurulan belə müasir infrastruktur öz növbəsində respublikada iqtisadi inkişafa, qeyri-neft sektorunda aktivliyin artmasına müsbət təsir göstərir. Zamanında belə güclü infrastruktur yaradılmasa idi, bu gün ölkənin uğurlu iqtisadi inkişafından bəhs etmək mümkün olmazdı.

Azərbaycanda qeyri-neft sektorunun mühüm bir qolu kimi, sahibkarlığın inkişafı həm siyasi, həm də maddi cəhətdən dəstəklənir. 2004-cü ildən bəri respublikamızda çoxlu sayda sahibkarlıq subyektinə təxminən 2 milyard manat həcmində kreditlər ayrılıb ki, onların da böyük qismi regionların payına düşür. Belə davamlı dəstək tədbirləri sayəsində Azərbaycanın hərtərəfli və davamlı inkişafında özəl bölmənin xüsusi çəkisi getdikcə artır. Hazırda respublika üzrə ümumi daxili məhsul istehsalının təxminən 80 faizi özəl bölmənin payına düşür. Davamlı dövlət dəstəyi sayəsində ölkədə məşğulluqda və vergi daxilolmalarında özəl bölmənin çəkisi 70 faizi ötüb. Ümumiyyətlə, ölkədə sahibkarlar yeni layihələrin həyata keçirilməsində fəal iştirak edirlər.

Hazırda respublikamızda neftdənkənar iqtisadiyyatda mühüm yer tutan aqrar sektor yeni yanaşmalar əsasında inkişaf etdirilir. İndiyədək dövlət başçısının tapşırığına uyğun olaraq ölkəmizin 20 rayonunda 44 min hektardan çox sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılıb.

Əlamətdar haldır ki, ölkəmizdə sənayeləşmə siyasəti ildən-ilə daha geniş vüsət alır. Ötən il bu istiqamətdə işlər intensiv şəkildə davam etdirilib, neftdənkənar iqtisadiyyat üzrə 410 sənaye müəssisəsi açılıb. Hazırda Bakıda, Sumqayıtda, Mingəçevirdə və digər bölgələrdə yeni sənaye obyektlərinin tikintisi uğurla davam etdirilir, bir neçə bölgədə isə sənaye məhəllələri yaradılır.

Əlbəttə ki, yeni şəraitdə Azərbaycanın mənzərəsi genişməzmunlu islahatlarla səciyyələnir. Birmənalı şəkildə demək mümkündür ki, respublikamızın indiki şəraitdə də uğurlar qazanmasının əsasında yeni iqtisadi modelə keçidin uğurla təmin edilməsi amili dayanır. İnstitusional sahə də daxil olmaqla müxtəlif istiqamətləri əhatə edən islahatlar, o cümlədən Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixində imzaladığı Fərmanla təsdiqlənən milli iqtisadiyyat perspektivi və onun 11 sektoru üzrə strateji yol xəritələri yaxın, orta və uzunmüddətli dövrlərdə ölkəmizin hərtərəfli inkişafına hesablanıb.

Azərbaycanın qarşıya qoyduğu əsas məqsədlərdən biri neftdənkənar iqtisadiyyatın üstün inkişafını təmin etməklə bu sektordan ixracın həcmini artırmaqdır. Qeyd edək ki, ölkəmizdə aparılan islahatlar çərçivəsində həmçinin ixracın genişləndirilməsini hədəfləyən müvafiq tədbirlər həyata keçirilir. Ötən ildən ölkəmizdə beynəlxalq təcrübə əsas götürülməklə ixracın səmərəli təşviq mexanizmi işə salınıb ki, bu da ixracın stimullaşdırılması baxımından böyük önəm daşıyır. İxracın stimullaşdırılması ilə bağlı imzalanan sənədlərə uyğun olaraq, "İxrac təşviqinin ödənilməsi" qaydası", "İxrac təşviqi şamil olunacaq məhsulların siyahısı"" və "İxrac təşviqi üzrə tətbiq olunacaq əmsallar" təsdiq edilib.

Ölkəmizin xarici ticarət dövriyyəsində müsbət saldonun yaranmasında qeyri-neft məhsulları ixracının artması da mühüm rol oynayıb. Bu ilin ötən dövründə respublikamızdan qızıl ixracı 56 faiz, elektrik enerjisi ixracı 4,1 dəfə, alüminium ixracı 28 faiz, kimya sənayesi məhsulları ixracı 25 faiz, plastiklər ixracı 14 faiz, mis-filiz konsentratları ixracı 94 faiz, avadanlıqlar, mexaniki qurğular ixracı 48 faiz, mis və ondan hazırlanan məmulatların ixracı 54 faiz, toxuculuq məmulatlarının ixracı 92 faiz, elektrik avadanlıqları və hissələrinin ixracı 75 faiz, daş, gips, sement ixracı 34 dəfə artıb.

***- Tahir müəllim, Hazırda Azərbaycanın ixrac potensialının artırılması istiqamətində də sistemli tədbirlər həyata keçirilir. Bu yöndə görülən işləri necə dəyərləndirirsiniz?***

- Son illərdə həm regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları, həm də yeni nəsil iqtisadi islahatlar çərçivəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq ölkəmizin bölgələrində ixracyönümlü məhsul istehsalına maraq əhəmiyyətli dərəcədə artıb. Hərtərəfli dövlət dəstəyindən, o cümlədən güzəştli kreditlərdən, subsidiyalardan, ixracın təşviqi mexanizmindən, daxili istehsalın dəstəklənməsindən bəhrələnən fermerlər onlara məxsus torpaq sahələrindən daha səmərəli istifadə etməyə, məhsuldarlığı artırmağa və xarici bazarlara daha böyük həcmlərdə rəqabətqabiliyyətli məhsul çıxartmağa çalışırlar.

Azərbaycanın yeni ixrac hədəfləri müəyyənləşdirilərkən ölkənin reallıqları əsas götürülüb. Bir tərəfdən respublikamızın coğrafi-iqlim xüsusiyyətləri elədir ki, burada yüksək rəqabət qabiliyyətinə malik məhsul yetişdirmək üçün hər cür imkan vardır. Digər tərəfdən, geniş ixrac bazarları ilə əhatə olunması ölkəmizin böyük üstünlüyüdür. Bu bazarlarda Azərbaycanın keyfiyyətli meyvə-tərəvəz məhsullarını yaxşı tanıyır və yüksək qiymətləndirirlər. Respublikamızın qarşıya qoyduğu məqsəd isə həm ənənəvi satış bazarlarında mövqelərini daha da möhkəmləndirməkdən, həm də yeni bazarlara çıxmaqdan ibarətdir.

Son vaxtlar Azərbaycandan uzaq xarici ölkələrə göndərilən ixrac missiyaları həmin ölkələrin bazarlarını araşdırır, eyni zamanda meyvə-tərəvəz, emal sənayesi məhsullarımızı tanıdırlar. Yerli sahibkarların da qatıldıqları belə missiyalar son olaraq Dubaya və Ciddəyə təşkil olunub. Bütövlükdə, "Made in Azerbaijan" brendinin təşviqi məqsədi ilə vacib tədbirlər həyata keçirilir. Bütün bunlar gələcəkdə ixrac imkanlarını daha da genişləndirəcək.

***- Tahir müəllim, son illər ölkəmizdə aqrar sahənin inkişafı yönündə vacib tədbirlər həyata keçirilir. Bu tədbirlərin fonunda əldə olunan nəticələr haqqında da fikirlərinizi bilmək istərdik...***

- Respublikamızda aqrar sektorun inkişafı ilə bağlı qarşıya qoyulan məqsədlərə çatmaq üçün genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkədə 2004-cü ildən bəri uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarında aqrar sektorda daha böyük həcmlərdə istehsal imkanlarının yaradılmasına hesablanan çoxsaylı layihələr həyata keçirilib, həmçinin perspektiv üçün də yeni layihələr nəzərdə tutulub.

Məlumdur ki, hazırda dünyanın əksər inkişaf etmiş ölkələrində kənd təsərrüfatı innovativ əsaslarla inkişaf etdirilir və yüksək məhsuldarlığa nail olunur. Meydana çıxan yeni çağırışlar Azərbaycanda da aqrar sektorun yeni yanaşmalarla inkişaf etdirilməsinin aktuallığını artırıb. Bilirsiniz ki, respublikamızın ərazisinin yalnız 54,9 faizi kənd təsərrüfatına yararlıdır. Bu ərazilərin də əksəriyyəti - 2915,4 min hektarı daimi bitkilər, otlaqlar və biçənəklər altında olan torpaqlardır. Respublikanın regionlarında cəmi 1,8 milyon hektar sahə şum əkinçiliyi üçün istifadə olunur. Suvarılan torpaqlar ölkənin kənd tə-

# Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcək inkişafa və rifaha hesablanan düşünülmüş, məqsədyönlü siyasət həyata keçirilir

## Milli Məclisin deputatı Tahir Süleymanovun yap.org.az-a müsahibəsi

sərrüfatına yararlı torpaq sahələrinin üçdəbirini təşkil edir. Respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarının 90-95 faizi də məhz bu torpaqların payına düşür. Mütəxəssislərin qənaətinə görə, torpaq-iqlim şəraiti Azərbaycanda suvarılan torpaq sahələrini 3,0-3,5 mln. hektara qədər artırmağa imkan verir.

Son 14 ildə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında ölkənin regionlarında meliorativ tədbirlərin həyata keçirilməsinə əsaslı kapital qoyuluşu dəfələrlə artıb, sahənin maddi-texniki bazası xeyli yaxşılaşdırılıb, minlərlə kilometr suvarma kanallarının və kollektor-drenaj şəbəkələrinin bərpası, yenidən qurulması və tikintisi həyata keçirilib. Regionlarda reallaşdırılan layihələr sayəsində 347 min hektar sahədə suvarılan torpaqların su təminatı, 239 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 55 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib, sel və daşqınlara qarşı Kür, Araz və dağ çaylarında 1000 kilometrdən artıq sahilbərkitmə və bəndlərin möhkəmləndirilməsi işləri həyata keçirilib.

Respublikanın icməli və suvarma su təminatının yaxşılaşdırılması baxımından Taxtakörpü, Şəmkirçay, Tovuzçay su anbarlarının inşası tarixi nailiyyətdir. Bu anbarların istifadəyə verilməsi regionlarda minlərlə hektar suvarılan torpaqların su təminatının yaxşılaşmasına, eyni zamanda, dövriyyəyə yeni torpaqların cəlb edilməsinə münbit zəmin yaradıb.

***- Ölkəmizdə müasir təsərrüfatların yaradılması geniş təşviq olunur. Belə təsərrüfatların yaradılmasının əhəmiyyəti nədən ibarətdir?***

- Son illərdə regionlarda müasir təsərrüfat subyektlərinin yaradılması ölkəmizdə aqrar sektorun yeni yanaşmalar əsasında inkişaf etdirilməsinə yaxşı nümunədir. Hazırda iri fermer təsərrüfatlarının yaradılması uğurla həyata keçirilir. İndiyədək dövlət başçısının tapşırığına uyğun olaraq ölkəmizin 20 rayonunda 44 min hektardan çox sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılıb.

Regionlarda istixanaların salınması da çox geniş vüsət alıb. Hazırda 400 hektardan çox sahədə yeni, müasir istixana kompleksləri yaradılır. Artıq bir sıra bölgələrdə fəaliyyətə başlayan istixanalarda yüksək məhsuldarlığa nail olunur.

Ölkəmizdə Prezident İlham Əliyevin aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq həmçinin aqroparkların yaradılmasına başlanılıb. Bu məqsədlə aqroparklarda müasir istehsal, emal və infrastruktur müəssisələrinin yaradılmasına 40 milyon manatdan artıq güzəştli kredit verilib.

İndiyədək regionlarda 10 min hektar ərazidə 2 aqropark yaradılıb. Perspektivdə Azərbaycanın bölgələrində aqroparkların sayı daha da artacaq. Hazırda ölkə ərazisində aqroparkların yaradılması güclü şəkildə təşviq olunur. Yeni yaradılan aqroparklar həm bitkiçilik, həm də heyvandarlıq istiqamətlidir. Bu aqroparklarda 10 min yeni iş yerinin açılması nəzərdə tutulur.

Aqroparklar tam fəaliyyətə başladıqdan sonra il ərzində təxminən 500 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal olunacaq. Görülən bu işlər aqrar sahənin dinamik inkişafında mühüm rol oynayır.

## Aydın Mirzəzadə: “Sammitdə Dağlıq Qarabağ məsələsi də qaldırılacaq”



“Moskvada keçiriləcək Müstəqil Dövlətlər Birliyinin (MDB) dövlət başçılarının qeyri-rəsmi görüşündə hesab edirəm ki, ilk növbədə 2017-ci ilə siyasi qiymət veriləcək”. Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, MDB-yə daxil olan üzvlərin bir sıra məsələlər üzrə vahid mövqeyinin müəyyənləşməsinə çalışılacaq: “Ümumən götürdükdə dövlət rəhbərlərinin vaxtaşırı görüşməsi və dünyanı narahat edən problemlər üzrə fikir mübadiləsi aparması müsbət bir haldır. Azərbaycan tərəfi həm təşkilatın fəaliyyəti, həm də beynəlxalq birlikdə olan problemlərlə yanaşı aydın məsələdir ki, ölkəmizi ciddi narahat edən Dağlıq Qarabağ məsələsini də qaldıracaq.

Təşkilatın üzvü olan Ermənistanın Azərbaycan torpaqlarının bir hissəsini indiyədək işğalda saxlaması bütün beynəlxalq hüquq normalarının kobud surətdə pozulmasıdır. Bu artıq tək Azərbaycanın deyil, elə Ermənistanın da özünün inkişafına çox ciddi təsir edir. Həmçinin birlik ona daxil olan ölkələrin beynəlxalq hüquq normalarına riayət etməsini daima diqqətdə saxlamalıdır və buna məsuliyyət daşımalıdır. Buna görə də sözügedən sammitdə Azərbaycan tərəfi ciddi məsələlərlə çıxış edəcəyi tamamilə gözlənilməndir. Nəzərə alsaq ki, Azərbaycan artıq regionun və dünyanın ən nüfuzlu dövlətlərindən biridir və onun bir sıra məsələlər üzrə mövqeyi həmişə gözlənilir, böyük hörmət bəslənilir. Azərbaycanın dövlətçilikdə qarşıya çıxan məsələlərin həllinə dair praktikası MDB üzvləri üçün də istifadə oluna bilən bir siyasi texnologiya hesab edilə bilər”.

## Rusiyalı turistlər Yeni il ərəfəsində ən çox Minsk və Bakıda istirahət edəcəklər



Azərbaycanın paytaxtı Bakı şəhəri MDB dövlətləri arasında Yeni il bayramı ərəfəsində rus turistləri üçün ən çox istirahət edəcəyi ikinci şəhər sırasındadır. AZƏRTAC BELTA-ya istinadən xəbər verir ki, Rusiyanın Tvil.ru şirkətinin reytinqinə görə, 2017-ci il dekabrın 30-dan və 2018-ci il yanvarın 8-ə qədər olan müddətdə rus turistlərin səfər edəcəkləri şəhərlər sırasında ilk sıranı Belarusun paytaxtı Minsk, ikinci sırada Bakı, üçüncü sırada isə Qazaxıstanın Almatı şəhəri tutur. Gürcüstanın paytaxtı Tbilisi isə dördüncü sırada qərarlaşıb.

## Aviqdor Liberman: “Azərbaycan bütün dövrlərdə dinlərarası və millətlərarası tolerantlıq nümunəsi göstərib”

***Azərbaycan İsrailin strateji tərəfdaşıdır, keçmişdə olduğu kimi, indi də dinlərarası və millətlərarası tolerantlıq nümunəsidir. Bu fikirləri AZƏRTAC-a məxsusi açıqlamasında İsrailin müdafiə naziri Aviqdor Liberman deyib.***



İsrail ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu bildirən müdafiə naziri dostluq münasibətlərinin daha da möhkəmləndiyini və səmərə verdiyini vurğulayıb: “Bu, birmənalı olaraq hər iki tərəfin xeyrinədir. Əməkdaşlığımız qarşılıqlı marağa söykənib. Ümid edirəm ki, bizim əlaqələrimiz bundan sonra daha da inkişaf edəcək. İsrail və Azərbaycan bir çox sahələrdə ortaq mövqelərdən çıxış edirlər. Əməkdaşlığımız yüksək texnologiyalar, kənd təsərrüfatı, energetika, təhlükəsizlik və digər sahələri əhatə edir. İnanıram ki, ikitərəfli əlaqələrimiz genişlənməkdə davam edəcək”.

Aviqdor Liberman son illərdə Azərbaycan rəhbərliyi, yüksək səviyyəli rəsmilərlə, siyasi xadimlərlə bir sıra silsilə görüşlərdə regional təhlükəsizlik, hərbi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələlərini müzakirə etdiklərini diqqətə çatdırıb. Rəhbəri olduğu “Bizim evimiz İsraildir” partiyasının hər zaman İsrailin xarici siyasət xəttini Bakıya tərəf istiqamətləndirdiyini vurğulayan nazir buna tarixi şəraitin və səmimi minnətdarlıq duyğularının səbəb olduğunu deyib: “Vaxtilə Azərbaycanda yaşamış tanınan jurnalist, İsrailin Belarusdakı keçmiş səfiri İosif Şaqal Knessetə bizim partiyamızdan deputat seçilib. “Bizim evimiz İsraildir” partiyasından Yokneam-İlit şəhərinin birinci vitse-meri Roman Peres də Azərbaycanda doğulub. Bu şəhərdə ölkənizlə bağlı bir sıra tədbirlər keçirilib. Qubadakı “Qırmızı Qəsəbə”nin keçmiş sakini Adam Amilov şimal şəhərimiz olan Kiryat-Yamın vitse-meridir. Seçicilərimiz arasında bir çox azərbaycanlı yəhudilər var və ümid edirəm ki, onlar gələcəkdə də bizi dəstəkləyəcəklər”.

Azərbaycanın dinlərarası və millətlərarası tolerantlıqda müsəlman ölkələrinə, eləcə də Qərbə nümunə olduğunu vurğulayan İsrailin müdafiə naziri ölkəmizdə heç bir zaman antisemitizmin müşahidə olunmadığını söyləyib: “Min illərdir ki, yəhudilər Azərbaycanda yaşayırlar və hər zaman özlərini təhlükəsiz, dostluq münasibətinin hökm sürdüyü etibarlı mühitdə hiss ediblər. Yüzlərlə yəhudi İkinci Dünya Müharibəsi ərəfəsində Azərbaycanda özlərinə sığınacaq tapıb. Bununla da onlar ölüm təhlükəsindən qurtarıblar və ölkəniz onlar üçün ikinci ev olub. Sirr deyil ki, Holokost bizim üçün çox həssas mövzudur və tariximizin ən çətin, qaranlıq dövründə bizə göstərdikləri qonaqpərvərliyə görə Azərbaycan xalqına dərindən minnətdarıq”.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunan Aviqdor Liberman ölkəmizin bu problemdə olduqca məsuliyyətli mövqe tutduğunu vurğulayıb: “İsrailin Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşdığını mən dəfələrlə bəyan etmişəm. Biz həmişə vurğulayırıq ki, ölkəniz beynəlxalq hüquq normaları çərçivəsində hərəkət edir. Biz Azərbaycan xalqını dəstəkləyirik və hesab edirik ki, bu problem yalnız beynəlxalq ictimaiyyətin qəti mövqeyi və qərəzli yanaşma olmadan hər iki tərəfin birbaşa danışıqlar aparması ilə həll edilə bilər. Çünki real faktlardan, obyektiv mövqedən uzaq hər hansı cəhd problemi həll etmir, əksinə, onu daha da ağırlaşdırır”.

## Bakıda alternativ teleqüllə istifadəyə verilib



Bakıda alternativ televiziya qülləsi istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, alternativ qüllə ehtiyat qüllə funksiyası daşıyacaq və zərurət yaranacağı təqdirdə, məsələn, efir məkanında profilaktik işlər aparılarkən işə salınacaq. Əvvəlcə alternativ teleqüllə vasitəsilə sosial paketə daxil olan telekanallar və İctimai Radio yayımlanacaq. Bu məqsədlə stansiyada əlavə TV ötürücüləri quraşdırılıb. Bu həftənin sonunadək isə FM-radio ötürücüləri quraşdırılacaq. Qeyd edək ki, alternativ televiziya qülləsi Nərimanov rayonunda yerləşir və Bakı Teleqüllə Kompleksi ilə əlaqələndirilib. Qüllənin hündürlüyü 140 metrdir.

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib



***Dünən Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını giriş sözü ilə açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdəki məsələlər barədə məlumat verib. Gündəlik səsə qoyularaq qəbul edilib. Gündəlikdəki ilk məsələ Milli Məclisin deputatı Elmira Axundovanın "Kriminal.az" saytına qarşı şikayəti olub. Hər iki tərəfin təmsilçisinin iştirakı ilə keçirilmiş müzakirədə rəyə gəlinib ki, "Kriminal.az" materialın təqdimatında yanlışlığa yol verib. Sayta xəbərdarlıq edilib və gələcəkdə bu kimi məsələlərə həssas yanaşmaq tövsiyə olunub.***

İclasda müzakirə edilən növbəti məsələ Ağdam Rayon Təhsil Şöbəsinin müdiri Mətanət Misirxanovanın "Dosye.az" və "Vetenperverler.az" saytlarına qarşı şikayəti olub. Məsələ ilə bağlı çıxarılmış rəydə "Vetenperverler.az"a xəbərdarlıq olunub. "Dosye.az" saytı ilə əlaqədar toplanmış materialların isə Şuranın "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasında araşdırılmasına dair rəy çıxarılıb.

Nərimanov Rayon İcra Hakimiyyətinin "Gundemxeber.az" saytı ilə bağlı müraciətinin müzakirəsi zamanı məlumat verilib ki, sözügedən sayt "Gündəm xəbər" qəzetinin elektron versiyasıdır. Bu qəzet isə vaxtilə Şuranın "qara siyahı"sında olub. MŞ-nin "Reket nəşrlərin müəyyənləşdirilməsinə dair Təlimat"ında göstərilib ki, adı "qara siyahı"dan çıxarılmış kütləvi informasiya vasitəsi barədə hər hansı əsaslı şikayət məktubu daxil olarsa, həmin media orqanının adı yenidən "qara siyahı"ya qaytarılır. "Gundemxeber.az" saytı ilə bağlı da götürülmüş ölçü tədbiri budur. Bakı şəhəri Suraxanı rayonu 278 saylı orta məktəbin direktoru Məlahət Əliyevanın "Anaxeber.com" saytı ilə bağlı şikayəti ilə bağlı çıxarılmış rəy bundan ibarət olub ki, sözügedən sayt qarşı tərəfin mövqeyini əks etdirən mətni yayımlasın və bu yolla mübahisə qapanmış sayılsın. Rəydə həmçinin "Anaxeber.com"un balans prinsipini pozduğu əksini tapıb və bu barədə saytın rəhbərinə müvafiq tövsiyələr verilib.

İclasda müzakirə edilən növbəti məsələ Bakı şəhər Yasamal rayon 158 saylı orta məktəbin müəllimi Gülüstan Ağayeva və Nizami rayon 214 saylı orta məktəbin direktoru Esmira Ağayevanın "Amerikapress.com" saytına qarşı şikayətləri olub. Komissiya üzvləri müəyyənləşdiriblər ki, bu saytın müxtəlif təqdimatlarında yalnız peşə prinsipləri deyil, eyni zamanda Azərbaycan dilinin qaydaları da ciddi şəkildə pozulmaqdadır. Bütün bunlar, o cümlədən konkret məsələ üzrə "Amerikapress.com"un qarşı tərəfin mövqeyinə etinasız yanaşması nəzərə alınaraq sayta xəbərdarlıq edilib.

İclasda vətəndaşlar Natiq Cabbarovun, Həsənqulu Həşimovun və Zaur Tağıyevin "Təzadlar" qəzetinə qarşı şikayəti də müzakirə olunub. Cavabdeh tərəfin təmsilçisi narazılıq doğurmuş materialın həqiqətə söykəndiyini əsaslandıran faktlar təqdim edib. Əvvəlcədən məlumat verilməsinə baxmayaraq şikayətçi tərəf iclasda iştirak etməyib. Buna görə də şikayət əsassız sayılıb.

Sabirabad rayonunun Nizami kəndinin sakini Vilayət Cəbrayılovun "Reallıq.info" saytı ilə bağlı şikayətinin müzakirəsinin yekununda rəyə gəlinib ki, sözügedən saytla əlaqədar materialların hüquq-mühafizə orqanlarına göndərilməsinə ehtiyac var. Şikayətçi iddia edir ki, sayt hazırda məhkəmə hökmü ilə həbsdə olan şəxsə müəyyən təmənna müqabilində jurnalist vəsiqəsi verib və həmin şəxsin azadlığa çıxmasına çalışır. Bu kimi məsələlər hüquq normaları çərçivəsində araşdırılmalı və hüquqi ölçü tədbiri götürülməlidir.

# "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətində növbəti dini maarifləndirmə tədbiri keçirilib



Dünən "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Təlim-Tədris Mərkəzində növbəti dini maarifləndirmə tədbiri keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədrinin müşaviri Mehdi Məmmədov, Bakı Şəhər Baş Polis İdarəsinin Bakı Metropolitenində Polis Şöbəsinin rəhbərliyi və əməkdaşları, "Bakı Metropoliteni"nin məsul işçiləri iştirak ediblər.



Tədbirdə, ilk öncə, Dövlət Komitəsinin sifarişi ilə hazırlanan "Şəhadət" sənədli filmi nümayiş etdirilib. Daha sonra çıxış edən "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədrinin müşaviri M. Məmmədov mövzunun əhəmiyyətindən danışıb. Bildirib ki, DQİDK ilə "Bakı Metropoliteni" birgə mütəmadi bu cür maarifləndirmə tədbirləri həyata keçirir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxışında ölkəmizdə dini radikalizm və dini ekstremizmlə mübarizə tədbirlərindən bəhs edib. Natiq bu istiqamətdə Dövlət Komitəsinin sifarişi ilə hazırlanan "Fitnə", "Şəhadət" sənədli filmlərinin böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. S. Heydərovun sözlərinə görə, bəzi xarici qüvvələr islam dinindən siyasi və iqtisadi maraqlar naminə alət kimi istifadə edirlər ki, Yaxın Şərqdə baş verən proseslər buna bariz nümunədir. Vurğulayıb ki, əslində, dinimiz sülh dinidir və insanları sülhə və əmin-amanlığa çağırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda ictimai-siyasi sabitliyin mövcud olduğunu diqqətə çatdıran Dövlət Komitəsinin sədr müavini bildirib ki, Azərbaycan dövlət-din münasibətlərinə, tolerantlıq və multikulturalizm siyasətinə görə, dünyada nümunəvi ölkələrdən biridir. Qeyd edib ki, ölkə başçısının təşəbbüsü ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması, bununla bağlı Bakıda "2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın keçirilməsi respublikamızın müsəlman aləmində, bütövlükdə, dünyadakı nüfuzundan irəli gəlir.

S.Heydərov dini radikalizmlə mübarizədə hər kəsi, xüsusilə, mühafizə keşikçilərini diqqətli olmağa çağırıb və bununla bağlı tövsiyələrini verib.

**R.RƏSULOV**

# Suraxanıda 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il təntənəli surətdə qeyd edilir




***31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2018-ci İl münasibəti ilə rayonda silsilə tədbirlər keçirilir. Rayonun ərazisində yerləşən təhsil, səhiyyə və sənaye müəssisələrində dəyirmi masalar, müxtəlif müsabiqələr və bayram şənlikləri təşkil olunur.***

Növbəti belə bayram tədbiri rayon icra hakimiyyətinin təşkilatçılığı ilə rayonun Yeni Günəşli yaşayış massivində yerləşən 2 saylı Uşaq Evində təşkil olunub. Uşaqları təbrik etmək üçün rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov 2 saylı Uşaq Evində olub. Uşaqları salamlayan rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2018-ci İl münasibəti ilə onları təbrik edib. İ.Abbasov çıxışında ölkə başçısı, Möhtərəm Prezidentimiz İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaqlara göstərdikləri diqqət və qayğıdan ətraflı danışıb: "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva tez-tez uşaq evləri və internat məktəblərində, o cümlədən, 2 saylı Uşaq Evində olur, onların gündəlik qayğıları, təlim-tərbiyəsi, təhsili, asudə vaxtlarının təşkili ilə maraqlanır və dəstək olurlar. Onlar uşaq evlərində məskunlaşan balacalara əsl ana qayğısı göstərirlər".

Tədbirdə çıxış edən 2 saylı Uşaq Evinin müdiri Sevda Hacıyeva uşaqlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

Uşaqların böyük həvəslə iştirak etdikləri şənlikdə uşaqlar arasında müxtəlif yarışlar təşkil olunub və onlara rayon icra hakimiyyəti başçısının bayram hədiyyələri paylanıb. Sonda incəsənət ustalarının uşaqlar üçün hazırladıqları bayram konserti, Şaxta Babanın, Qar Qızın maraqlı söhbətləri fidan balaların sevincinə sevinc qatıb.

**ZÜMRÜD**

# "ADY Express" müəyyən edilmiş tariflər əsasında BTQ ilə yüklərin daşımasına başlayıb

"ADY Express" Bakı-Tbilisi-Qars dəmir yolu ilə müəyyən edilmiş tariflər əsasında yüklərin daşımasına başlayıb. Şirkətdən AZƏRTAC-a bildirilib ki, artıq Azərbaycan ilə Türkiyə arasında yükdaşımalara dair tariflər müəyyən edilib. Yük sahibləri və yükgöndərənlər həmin qiymətlərlə tanış olub sifarişlərini edə bilərlər. Qiymətlər cədvəlində hər iki ölkənin əsas şəhərləri arasında tariflər göstərilsə də, "ADY Express" şirkəti "qapıdan-qapıya" yükdaşımaları xidməti təqdim etdiyindən, Azərbaycanla Türkiyə arasında yüklərin nəqli bütün istiqamətlər üzrə həyata keçirmək mümkündür. Onu da qeyd edək ki, cədvəldə göstərilən qiymətlər hər iki istiqamətdə eynidir və tariflərə konteynerlərin ayrılması daxil deyil.

ADY EXPRESS
AZƏRBAYCAN DƏMİR YOLLARI QSC

# "Ermənistanın iqtisadiyyatı çöküb"



Ermənistanın Mütəşəkkil Cinayətkarlıqla Baş Mübarizə İdarəsinin insan alveriylə mübarizə şöbəsinin rəisi Vaçe Ovsepyan statistika açıqlayıb. Statistikaya əsasən kişiləri Rusiyaya, qadınları Türkiyə və Birləşmiş Ərəb Əmirliklərinə üz tuturlar. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Sahib Alıyev deyib. Onun sözlərinə görə, iqtisadiyyatı şaxələndirmək, ixracı və onun istiqamətlərini şaxələndirmək - normal dövlətlər hamısı bunun üzərində düşünür və buna çalışırlar. Ermənistana gəldikdə sən demə orada da qədimdən qoruyub saxladıqları metodlarla özlərinə xas şaxələndirmə siyasəti aparılır. İqtisadiyyat adına heç nə olmadığından kişiləri Rusiyaya, qadınları Türkiyə və Birləşmiş Ərəb Əmirliklərinə üz tuturlar. Sözü gedən ölkənin statistikasına nəzər yetirdikdə bu aydın olaraq görünür.

**Ruqiyyə NƏCƏFZADƏ**

# 2017- ci il Azərbaycan üçün uğurlu oldu

*Azər Həsrət: "Bütün uğurların fonunda Qarabağ düyününün hələ də açılmaması üzücüdür"*



Müsahibimiz siyasi şərhçi Azər Həsrətdir

***- Azər müəllim, 2017-ci il başa çatmaqdadır. Sizcə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hər hansı bir ürəkaçan və sülhə xidmət edə biləcək hadisə baş verdimi?***

- Bəli, il başa çatır. Əlbəttə, yaddaqalan, Azərbaycan üçün uğurlu illərdən biri oldu. İstər xarici, istərsə də daxili siyasətdə dövlətin mövqeyi daha da möhkəmləndi. Azərbaycan özünü bir daha söz sahibi kimi təsdiq etdi, işğalçı Ermənistandan fərqli olaraq, ləyaqətli dövlət kimi apardı. Bütün uğurların fonunda Qarabağ düyününün hələ də açılmaması üzücüdür. Lakin bədbinliyə qapılmağa da dəyməz. Çünki 2017-ci ildə Azərbaycan məsələnin beynəlxalq səviyyədə gündəmdə tutulmasına nail ola bildi. Ən azından, deyə bilərik ki, ilin ikinci yarısında münaqişənin həlli isitqamətində hərəkətlilik müşahidə edildi. Bu da ümidlərin artması üçün yetərli sayıla bilər.

***- Bəzi ekspertlər qeyd edirlər ki, əvvəlki illərlə müqayisədə 2017-ci ildə Dağlıq Qarabağ münaqişəsinin həllində daha əhəmiyyətli çağırışlar, görüşlər və çıxışlar oldu. Doğrudanmı diqqəti cəlb edən hadisələr baş verdi?***

- Yuxarıda da, qeyd etdiyim kimi, danışıqlarda hərəkətlilik müşahidə edilir. İstər vasitəçi ölkələr, istərsə də ayrı-ayrı dövlətlərarası qurumlar münaqişənin həlli zamanı dövlətimizin ərazi bütövlüyünü ön plana çəkirlər. Bu, bizim üçün ən ədalətli həll planı deməkdir. Eyni zamanda, Azərbaycan Ordusu öz gücünü təkrar-təkrar sərgiləməli oldu ki, bu da münaqişənin sülh yoluyla həllində vacib amildir. Belə məqamları nəzərə alanda, Azərbaycanın daha üstün duruma gəldiyini deyə bilərik.

***- Növbəti ilin birinci ayında Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin və daha sonra isə prezidentlərin görüşü nəzərdə tutulur. Ümumilikdə 2018-ci ildə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı proqnozlar nədən ibarət ola bilər?***

- Münaqişə o qədər mürəkkəb bir mərhələdədir ki, onun sonuyla bağlı proqnoz vermək heç də asan deyil. Hələ nəzərə alsaq ki, bu münaqişə, sadəcə, işğalçı Ermənistanla işğal altında olan Azərbaycan arasında deyil, daha böyük güclərin məsələsidir. Yəni hamımız bilirik ki, Ermənistanın arxasında böyük güclər durduğu üçün, o, hələ də işğalda israr edə bilir. Belə bir durumda proqnoz vermək çətindir. Amma onu deyə bilərik ki, istənilən halda, durum Azərbaycanın xeyrinə dəyişməyə doğru gedir. Çünki bölgəmizin əsas söz sahibi Rusiya Ermənistanın hər an xəyanət edə biləcəyini daha yaxşı anlamaqdadır ki, bu da bizim üçün əlavə imkanlar deməkdir.

**GÜLYANƏ**

# Səbaildə "Vətənin müdafiəsinə hazıram" mövzusunda hərbi-vətənpərvərlik tədbiri keçirilib



Səbail rayonundakı 162 № li orta məktəbdə Səbail rayon icra hakimiyyəti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə "Vətənin müdafiəsinə hazıram!" adlı tədbir keçirilmişdir.

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının müqəddəs xatirəsi yad olunub.



Tədbirdə çıxış edən Səbail rayon icra hakimiyyətinin başçısının müavini Eldar Ağayev gənclərin üzərinə məsuliyyətli vəzifələrin düşdüyünü qeyd edərək, tarixin bütün mərhələlərində dövlətçiliyimizin qorunması, torpaqlarımızın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün və müstəqilliyimizin qorunub saxlanılmasında onların əvəzsiz rolunun olduğunu bildirib. Qeyd edib ki, keçənilki aprel döyüşlərində səbailli gənclər də yaxından iştirak etmiş və 2 gəncimiz bu döyüşlərdə yaralanmışdır.

SHXÇDX-nin şöbə rəisi, polkovnik Rasim Şirinov çıxışında vətənpərvərlik hissinin yüksəldilməsi üçün xidmət tərəfindən silsilə tədbirlərin keçirildiyini vurğulayıb. Şöbə rəisi təmsil etdiyi qurum tərəfindən bütün rayonlarda gənclərin vətənpərvərlik tərbiyəsi və səfərbərliyə hazırlığı, çağırışçılarda vətənpərvərlik hissinin yüksəldilməsi ilə bağlı tədbirlərin keçirildiyini bildirib.

Tədbirdə çıxış edən 162 №-li məktəbin hərbi hazırlıq rəhbəri Sərvan Şirinov, Qarabağ müharibəsində şəhid olmuş Etibar Əliyevin atası Allahverdi Əliyev və başqaları Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib, dövlətimizin başçısının Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğıdan danışıblar.

Tədbirdə SHXÇDX-nin təsis etdiyi "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərinə görə" mükafatları məktəbin məzunu, şəhid Etibar Əliyevin atası Allahverdi Əliyevə və Qarabağ müharibəsi veteranı İlham Əliyevə təqdim edilib. Eləcə də, çağırışaqədərki hazırlıq fənninin tədrisində və hərbi vətənpərvərlik işinin aparılmasında səmərəli fəaliyyətinə görə, 162 №-li orta məktəbin hərbi rəhbəri Sərvan Şirinov, gənclərin çağırışaqədərki hazırlığı fənnində yüksək nailiyyətlərə görə, həmin məktəbin X sinif şagirdi Əlizamin Quliyev SHXÇDX tərəfindən mükafatlandırılıb.

Bədii hissədə vətənpərvərlik mahnılarının mahir ifaçısı Şəmistan Əlizamanlı və 162 №-li orta məktəbin özfəaliyyət kollektivləri vətənpərvərlik mövzusunda tərtib edilmiş proqramla çıxış ediblər.

**Z. BAYRAMOVA**

# Hacıqabulda "700 min ağac əkək" kampaniyası çərçivəsində 1000 ədəd ağac əkilib



Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibəti ilə YAP Hacıqabul rayon təşkilatı "700 min ağac əkək" kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyası keçirib. Sabirabad rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsi ilə birgə keçirilən aksiyada rayon ərazisində 1000 ədəd ağac əkilib.

Aksiyada YAP Hacıqabul rayon təşkilatının fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

**ZÜMRÜD**

# Naxçıvanda şagirdlər arasında kütləvi diaskin sınağı aparılıb



Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində I-XI sinif şagirdləri arasında başlanğıc və məhdud formalı vərəmin erkən aşkar edilib vaxtında müayinə və müalicəyə cəlb olunması üçün aparılan kütləvi diaskin sınağı başa çatıb.

Muxtar respublikanın Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu il noyabrın 27-dən start götürən kütləvi müayinələrə 6473 şagird cəlb edilib. Diaskintestin yüksək səviyyədə həyata keçirilməsi məqsədilə rayon mərkəzi xəstəxanaları, şəhər, rayon gigiyena və epidemiologiya mərkəzləri tərəfindən ərazi prinsipi üzrə bir həkim və iki tibb bacısından ibarət xüsusi briqadalar yaradılıb. Həmçinin müvafiq maarifləndirmə və izahat işləri aparılıb. Diaskintest yüksək həssas və spesifik preparatdır. Əgər mantu sınağında dəqiqlik 70 faizdirsə, diaskintestdə bu göstərici 98 faizə çatır. Bu testin bir fərqi də mantu sınağında rast gəlinən allergik reaksiyaların və yalançı müsbət nəticələrin olmamasıdır. Bir sözlə, diaskintest vərəmə yoluxmuş xəstələrin erkən aşkar olunması və yoluxmuş insanların müalicəsinin effektivliyini göstərən dəqiq sınaq üsuludur.

# Qusarda növbəti ağacəkmə kampaniyası keçirilib



YAP Qusar rayon təşkilatının və rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibəti ilə "700 min ağac əkək" devizi altında növbəti ağacəkmə kampaniyası keçirilib.

Rayonun "Şuduğ" adlanan sahəsində keçirilən aksiyada bu dəfə Mədəniyyət İşçiləri ərazi ilk partiya təşkilatının üzvləri iştirak edib.

Həmin gün aksiya iştirakçıları 400-dən çox qoz və albalı tinglərini əkiblər.

Tədbirlər planına uyğun olaraq ağacəkmə kampaniyası, mütəmadi olaraq, rayon mərkəzində və bütün yaşayış məntəqələrində meyvə və dekorativ ağacların əkilməsi ilə 2018-ci ilin may ayına qədər davam etdiriləcək.

**NƏZAKƏT**

# Qlobal infrastruktur layihələri Azərbaycanın iqtisadi qüdrətinin artmasına zəmin yaradır






***Beynəlxalq ekspertlər Azərbaycanın geosiyasi rolunun artmasında enerji və nəqliyyat layihələrinin önəminə böyük diqqət yetirirlər. TAP, TANAP, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, "Cənub Qaz Dəhlizi" kimi əhəmiyyətli layihələrin reallaşmasının qlobal səviyyədə insanların rifahının yüksəlməsində ciddi rol oynadığı vurğulanır. Bu kimi layihələrin təhlükəsizlik və sabitliyə böyük töhfə verdiyi ifadə edilir. Həmin sırada Azərbaycanın "Bir qurşaq, bir yol" layihəsində iştirakı xüsusi geosiyasi və iqtisadi əhəmiyyətə malikdir. Bakı-Tbilisi-Qars dəmir yolu da, bu səbəbdən, bütün dünyanın diqqət mərkəzindədir. Ölkəmizin həyata keçirdiyi yol infrastrukturu keyfiyyətin reytinq göstəricisinə görə Avropa və MDB dövlətlərinə nümunədir.***

## Yeni "Əsrin müqaviləsi"

Bu il 14 sentyabr tarixində "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövr başlandı. Həmin gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gün kimi yaddaşlara həkk olundu. Yeni sazişin ölkəmiz üçün çox böyük əhəmiyyət kəsb etdiyi danılmazdır və məhz o gün "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. 1994-cü ildə imzalanmış saziş ölkəmizin maraqlarını tam təmin etdiyi kimi, budəfəki sazişin də daha əlverişli şərtlərlə imzalanması xüsusi diqqətə layiqdir. Sazişin bir hissəsi kimi SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılacaq və beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək və növbəti 32 il müddətində AÇG-yə 40 milyard dollardan çox sərmayə qoyulması gözlənilir. Azərbaycanın gələcək inkişafı, ölkənin maliyyə imkanlarının və iqtisadi qüdrətinin genişləndirilməsi üçün bu müqavilənin çox böyük əhəmiyyəti nəzərə alınaraq, təsadüfi deyil ki, bu saziş yeni "Əsrin müqaviləsi" adlandırılır.

"Əsrin müqaviləsi" imzalanandan bu günə qədər neft strategiyası uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu strategiya daha da genişləndirilərək, ölkəmizə daha önəmli sərmayələr cəlb edilir. Təbii ki, bu müqavilənin ölkəmizə gətirdiyi dividendlər yeni infrastruktur layihələrinin reallaşdırılmasına da zəmin yaratdı və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin reallaşdırılması ölkəmizin iqtisadi gücə malik olmasını bir daha təsdiqlədi.

## Bakı-Tbilisi-Qars düzgün müəyyənləşdirilmiş strategiyanın məntiqi nəticəsidir

Bu il, oktyabrın 30-da, böyük təntənə ilə Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi keçirildi. Bu dəfə də ölkəmiz yaddaşlara əbədi həkk olunan, daha bir uğura imza atmaqla, beynəlxalq əhəmiyyətli infrastruktur layihəni realaşdırmağa qadir olduğunu təsdiqlədi. Sözsüz ki, bu da, öz növbəsində, məhz düzgün müəyyənləşdirilmiş strategiyanın məntiqi nəticəsidir. Çin, Mərkəzi Asiya və Avropa iqtisadiyyatlarını Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən dəmir yolu tranzit xətti vasitəsilə birləşdirmək baxımından, həmin layihənin reallaşdırılması tarixi bir addımdır və müstəqilliyimizin tarixinə əlamətdar hadisə kimi yazıldı.

TRASEKA, "Şimal-Cənub" kimi iri nəqliyyat dəhlizlərindən sonra Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini gündəmə gətirməsi və reallaşdırması üçün bütün imkanlardan istifadə etməsi və nəhayət, bütün beynəlxalq, eləcə də, regional layihələrin reallaşması prosesində fəal iştirakı ilə diqqəti cəlb edən Azərbaycanın qarşıya qoyduğu çətin və mürəkkəb vəzifənin öhdəsindən layiqincə gəlməsi ölkəmizi tranzit daşımaların mərkəzinə çevirdi. Ərazisinin 20 faizinin düşmən əsarətində olmasına baxmayaraq, Azərbaycan regionda söz sahibi olduğunu bir daha təsdiqlədi və işğalçılıq siyasətindən hələ də əl çəkməyən, qonşu ölkələrin əraziləri hesabına dövlət kimi formalaşan Ermənistanı bu layihədən kənarda qoyması isə, düşmənə ən böyük zərbə oldu. Təsadüfi deyil ki, Ermənistan siyasi ictimaiyyəti və KİV-ləri hadisəyə çox həssas reaksiya verərək, Ermənistanı "yolların kəsişməsində əyləşən milli kor yarasa"ya bənzədirlər. Çinin təklif etdiyi "Yeni İpək Yolu" layihəsinin əsas marşrutunun Azərbaycandan keçməsinin reallaşması ilə bağlı da ermənilər və onların havadarları çoxlu spekulyasiyalar aparırlar. Ermənilər, mütəmadi olaraq, Pekinin Ermənistana üstünlük verdiyini, Mərkəzi Asiya-İran-Ermənistan marşrutunun işə salınacağını, Moskvanın buna yardım edəcəyini vurğulamağa çalışsalar da, reallıq ondan ibarətdir ki, bir neçə dövlət başçılarının iştirakı ilə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı reallaşdı və Ermənistan yenə də kənarda qaldı.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi əhəmiyyəti də danılmazdır. Çindən gətirlən mallar Azərbaycandan keçməklə Avropaya, Böyük Britaniyaya qədər məsafə qət etməsi, respublikamızın Qədim İpək Yolu layihəsinin tərkib hissəsinə çevrilməsi, bir sözlə, bu layihə, ilk növbədə, Azərbaycanın bölgədə statusunu daha da artıracaq. ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanın bu layihənin Azərbaycan üçün böyük əhəmiyyətindən danışması, o deməkdir ki, ABŞ rəsmiləri də layihə barədə müsbət fikirdədir və bu da, öz növbəsində, ölkəmiz üçün böyük siyasi əhəmiyyət kəsb edir.

Dövlət müstəqilliyimizin məhsulu olan "İpək Yolu" strategiyası Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və uğurlu iqtisadi siyasətinin nəticəsidir. Ağır sosial-iqtisadi vəziyyətin hökm sürdüyü, keçmiş təsərrüfat əlaqələrinin qırıldığı, nəqliyyat-iqtisadi blokadanın davam etdiyi, Avropa və dünya bazarına çıxışın olmadığı dövrdə, müstəqilliyin ilk illərində Avropa Komissiyasının müstəqillik əldə etmiş ölkələr üçün hazırladığı TRASEKA layihəsi və ölkə rəhbərliyinin bu layihəni qətiyyətlə dəstəkləməsi, dövlətçiliyimizin qorunması və onun iqtisadi və siyasi cəhətdən möhkəmləndirilməsi üçün geniş imkanlar açdı. Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü və kompleks tədbirlər sayəsində "Tarixi İpək Yolu"nun bərpası reallaşmaqla, geostrateji və geosiyasi əhəmiyyəti daha da artan Azərbaycan Şərqlə-Qərb arasında strateji körpü rolunu oynayan əlverişli tranzit əhəmiyyətli ölkəyə, Cənubi Qafqazın lider dövlətinə çevrildi.

Layihəyə start verildiyi vaxtdan onun reallaşa biləcəyinə inanmayanlar da vardı. Hətta Qərbdə bir sıra dairələr bu işə əngəl olmağa çalışırdılar. Erməni diasporunun sözçüləri dəmir yolunun Ermənistandan keçməsini şərt kimi qoymağa cəhd etdilər. Nəticədə, maliyyə problemi ortaya çıxdı. Azərbaycan və Türkiyənin birliyi ilə çətinlik dərhal aradan qaldırıldı və bütün dünyaya aydın oldu ki, bu layihənin arxasında iki dost və qardaş dövlət dayanıb. Bu, Ulu Öndər Heydər Əliyevin və Onun ənənələrini uğurla davam etdirən Prezident İlham Əliyevin xarici siyasət kursunun önəmli qələbələrindəndir.

## "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi iqtisadi maraqları əks etdirir

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin istismara verilməsindən bir gün sonra Prezident İlham Əliyevin İran İslam Respublikasına işgüzar səfərinin əsas səbəbi və Tehranda İran və Rusiya prezidenləri ilə görüşlər keçirməsi, hər üç dövlətin iqtisadi maraqlarını əks etdirən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşdırılması prosesi olub. Azərbaycanın "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulması, bu istiqamətdə yük və sərnişin daşımalarında fəal iştirakı respublikamızın iqtisadi maraqlarına, tranzit yüklərin daha geniş cəlb olunmasına, iqtisadiyyatımızın artmasına, həmçinin, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına, öz növbəsində, bir çox sosial problemlərin həllinə şərait yaradacaq. Nəzərə alsaq ki, Azərbaycan və İran arasında dəmir yolu xətləri mövcud olmadığından, yüklər sərhəd-keçid məntəqələrindən avtomobil nəqliyyatı ilə daşınır, deməli, layihənin gercəkləşməsi istiqamətində atılan addımlar ölkəmiz üçün olduqca əhəmiyyətlidir. Bu layihə böyük siyasi və iqtisadı əhəmiyyətə malik prioritet məsələlərdən olmaqla yanaşı, ən əsası, Azərbaycan və İran arasında əməkdaşlığın genişləndirilməsinə öz töhfəsini verəcək. Təbii ki, bu layihələr regionda sonuncu irimiqyaslı layihə olmayacaq və Azərbaycanı qarşıda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam işə düşməsi, Avropanın enerji təhlükəsizliyini təmin edəcək TANAP və TAP boru kəmərlərinin açılışı və s. kimi mühüm layihələr gözləyir. Bu gün Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəqliyyat qovşağı və logistika mərkəzidir. Məşhur Norveç tədqiqatçısı Byörn Veqqenin təbirincə desək, "Azərbaycan dünyada ən böyük yol ayrıcıdır" və Şərq ilə Qərb, Şimal ilə Cənub arasında körpü rolunu oynamaq üçün əlverişli geosiyasi mövqeyə və təbii ehtiyatlara malikdir.

Azərbaycanın qısa müstəqillik tarixində bir-birinin ardınca bir sıra iri miqyaslı layihələrə, beynəlxalq uğurlara imza atması, zəngin təcrübədən və iqtisadi inkişafdan xəbər verir. Belə layihələrin reallaşdırılması, həmin layihələrdən faydalanan bütün ölkələr arasındakı əməkdaşlığın daha da dərinləşməsinə və Azərbaycanın iqtisadi qüdrətinin artmasına, beləliklə də, gələcək inkişafına zəmin yaradır.

***İnam HACIYEV***

# Ermənilər Yeni ili ac qarşılayacaqlar










## Rəsmi məlumat: "Ölkə əhalisinin 50 faizi yoxsulluq həddindədir"





***Ermənistanda ilin son ayı müşahidə edilən ifrat bahalaşma sadə ermənilərin Yeni il bayramını ac olaraq qarşılayacaqları proqnozlarını reallaşdırmaqdadır. Belə ki, hakimiyyətin yüksək eşalonlarında vəzifə sahibləri olan şəxslərə aid monopoliyalaşmış satış mərkəzlərində qiymətlər, demək olar ki, saatbasaat artamaqdadır.***

## Erməni sosioloq: "Onlar acdırlar"

Bu arada Ermənistanın ictimai təşkilatları ölkədə mövcud olan yoxsulluq həddinin durmadan artması barədə həyəcan təbili çalmaqdadırlar. Belə ki, hələ bu ilin martında jurnalistlərə açıqlama verən sosioloq Aqaron Adinekyan demişdi ki, erməni uşaqlarının məktəbə getməməsinin səbəbi aydındır. "Onların, nəinki isti paltar və ayaqqabısı yoxdur, həm də acdırlar"- sosioloq qeyd etmişdi.

## Aqaron Adinbekyan "Bugünkü kimi dəhşətli vəziyyət heç vaxt qeydə alınmayıb"

Bu günlərdə yenidən mediaya çıxan Adinbekyan növbəti dəfə xalqın vəziyyətinin kritik olduğunu bildirib. Onun sözlərinə görə, yoxsulluq gələcək nəslin inkişafına neqativ təsir göstərir. "Bu yoxsulluq davamlı şəkildə rişə atır"-deyən A.Adinbekyan vurğulayıb: "Bugünkü kimi dəhşətli vəziyyət heç vaxt qeydə alınmayıb".

Erməni sosioloq, həmçinin, qeyd edib ki, Ermənistan ÜDM-in səviyyəsinə görə 135-ci yerdədir. Bu baxımdan, yoxsulluğun qarşısını almaq üçün dərhal tədbirlər görülməlidir. "Çünkin yoxsulluq, hər şeydən əvvəl, uşaqların psixoloji durumuna mənfi təsir göstərir"-deyən ekspert qeyd edib ki, hazırda Ermənistanda yoxsulluq həddi 50 faizdir.

## Erməni saytı: "Bazar dəfnetmə bürosunu xatırladır, heç kim gəlmir və heç kim heç nə almır"

Yeri gəlmişkən, Ermənistanın 1in.am saytı da qiymətlərin həddindən artıq bahalaşmasının xalqın ac qalmasına səbəb olduğunu yazır. "Bazarlarda bayramqabağı ajiotaj müşahidə olunmur. Biz, furalarda (yük maşınlarında-R.N.) 1-2 milyon dramlıq (erməni pul vahidi-R.R.) mal gətirmişik, ancaq gün ərzində heç 20 min dramlıq satış edə bilmirik"-deyə erməni saytının jurnalisti ilə söhbətlərində satıcılar bildirib.

Onların sözlərinə görə, hətta qiymətləri ucuzlaşdırsalar belə, yenə də tətbiq olunan həmin qiymətlər alıcılar üçün əlçatmaz olur. SİTAT: "Bizdə bir kilosu 500 dramdan 1500 drama qədər alma, 1000 dramdan 2000 drama qədər armud, bir ədədi 800 drama isə nar məhsulları var, ancaq insanlar bazara daxil olmurlar, çünki onların əllərində pul yoxdur. Belə olan vəziyyətdə, insanlar necə alış-veriş etsinlər?"-deyə satıcılar giley-güzar ediblər.

Digər satıcı isə bildirib: "Bazar dəfnetmə bürosunu xatırladır, heç kim gəlmir və heç kim heç nə almır".

## "Əgər bizdə pul yoxdursa, hansı təmtəraqlı Yeni il süfrəsindən danışa bilərik?"

Erməni saytı yazır ki, alıcıların cüzi hissəsi, qiymətlərin baha olması səbəbindən, yalnız ilkin lazım olan məhsulları çox az miqdarda alırlar. Çünki bayram süfrəsinə nə isə qoymalıdırlar. Xüsusilə ət və ət məhsulları bahadır.

"Çox bahacıllıqdır. Bir pensiyaya və maaşa işləyən insan bu qiymətlərə necə alış-veriş edə bilər?"-deyə alıcılardan biri soruşub. "Mən, 30 min dram pensiya alıram. Bu pensiya ilə kilosu 2,5 min dram olan ət, ya da pomidor ala bilərəmmi? Əlbəttə, edə bilmərəm! Əgər bizdə pul yoxdursa, hansı təmtəraqlı Yeni il süfrəsindən danışa bilərik? Məcburi şəkildə ən minimal şəkildə alış-veriş edirik"-deyə alıcı şikayətini davam etdirib.

Beləliklə, Ermənistan əhalisinin böyük hissəsi bayram öncəsi heç bir bayram ovqatında olmadıqlarını öz dilləri ilə etiraf edirlər. Bu isə, işğalçı ölkənin reallığını göstərən bariz sübutdur.

**RÖVŞƏN**

# Müxalifət formalaşa bilmir və parçalanmaqda davam edir

***Hər bir ölkənin inkişafı üçün güclü müxalifətin olması çox vacibdir. Bunu inkişaf etmiş ölkələrin təcrübəsindən də görmək olar. Əslində, rəqabətin fonunda hər bir düşərgə tərəqqi, ölkənin potensialının artırılması, bir sözlə, inkişafı üçün öz proqramı və fəaliyyəti ilə ön planda olmağa çalışır. Təbii ki, bu məsələdə seçim xalqa məxsusdur və layiqlilərin qələbəsi labüddür.***

Azərbaycan müxalifətinin ən böyük problemi, ölkədaxili məsələlərin həlli ilə bağlı alternativ proqramlarının olmamasıdır. Müxalif qurumların taktiki sahədə yanlış addımları onun uzunmüddətli mübarizə üçün düşünülmüş strateji layihələrinin olmamasından xəbər verir. Maliyyə sistemi, istehsal sahələri, təhsil, mədəniyyət, səhiyyə, hərbi sənaye, sosial sfera və sair istiqamətlərdə heç bir plan və proqramları, heç bir fikirləri, hətta təsəvvürləri belə yoxdur. Müxalifət öz mübarizəsində illərdən bəri sınaqdan keçmiş, sözün əsl mənasında, mitinq taktikasından başqa heç bir taktikadan istifadə edə bilmir.

## Kadr potensialı olmayan müxalifət möcüzələrə inanan və sığınan körpə uşaq misalındadır

Mübarizəyə sivil qaydada qatılmaq və ictimaiyyətin, dövlətin maraqlarından çıxış etmək üçün müxalifətin ciddi kadr potensialı yoxdur. Ona görə də, fəaliyyəti xaotik, dağınıq şəkildədir və illərlə bundan öncəki küçə, meydan toplantılarından başqa, heç bir istiqamətdə fəaliyyət gözə dəymir. İdarə edilməyən kütlənin, daha doğrusu, küçə və prospektlərdə olan 5-10 nəfərin xaotik hərəkətinə ümid edən müxalifət, möcüzələrə inanan, nağıl qəhrəmanlarına sığınan körpə uşaq misalındadır.

Kadr potensialının olmaması, maliyyə resurslarının məhdudluğu isə hakimiyyət uğrunda mübarizədə xalqa deyil və Azərbaycanda marağı olan beynəlxalq güclərə xidmət etməkdən başqa müxalifət üçün yol qoymur. Çünki belə bir müxalifətə xalq tərəfindən ciddi dəstək gözləmək ağlasığan deyil. Belə bir ictimai dəstəyin olmadığı üçün, onlar ölkəmizin uğurlarını gözü götürməyən qüvvələrə sığınmaqla, həm xüsusi ideya və sifarişlər, həm də qrant kimi maliyyə vəsaitləri alırlar. Buna görə də, əsas ümidi Azərbaycanda geosiyasi maraqları olan xarici qüvvələrə bağlı olan müxalifət, bir qayda olaraq, ona dəstək verəcək əhalinin deyil, xarici məkrli qüvvələrin maraqlarından çıxış edir. Hətta onlara, mütəmadi olaraq dezinformasiyalar, həqiqətə uyğun olmayan xəbərlər, şər və böhtan xarakterli məlumatlar ötürməklə öz xəyanətkar simalarını ortaya qoyur, əvəzində siyasi dividend qazanacağına və maliyyə resursları əldə edəcəyinə bel bağlayır. Bir sözlə, vətənini, xalqını, dövlətini, milli maraqlarını və bütün mənəvi dəyərləri sataraq, yalnız öz mənafeyini düşünür, gülünc də olsa, hakimiyyətə iddialı olduğunu bəyan edir. Bu cür müxalifətin gələn il keçiriləcək prezident seçkiləri ərəfəsində, xalqın dəstəyindən tamamilə məhrum olacağı və məğlubiyyətə uğrayacağı şübhə doğurmur.



## Parçalanmış müxalifət monolit komanda halında olan hakimiyyətlə müqayisə belə edilə bilməz

Müxalifətin daha ciddi problemlərindən biri də, uzun müddətdir müxalif mövqeyində durub, bir-birinin ünvanına ittihamlar yağdırmaq, bununla da, hər biri özünü daha layiqli lider, daha üstün fiqur kimi sırımağa çalışması və birincilik fobiyasıdır. Müxalifət bütün səylərinə baxmayaraq parçalanmış, dağılmış, xaotik bir vəziyyətdədir və monolit komanda halında olan hakimiyyətlə müqayisə belə edilə bilməz. Müxalifətin birləşə və formalaşa bilməməsi, istinad etdiyi ideoloji-siyasi dəyərlərlə bağlı deyil, hansının sağçı, solçu, başçı, ana və dədə müxalifət bölgüsü aparması ilə əlaqədardır. Daha dəqiq desək, bir müxalifət qurumunda liderliyi qazana bilməyən ünsürlərin hər biri təmsil olunduğu qurumu, partiyanı tərk edərək, yeni bir "cırtdan" partiya, qurum yaradaraq, özünü lider elan edir və fəaliyyətini birinciliyi qazanmağa, "ana müxalifət" adı uğrunda mübarizəyə həsr edir.

Partiyalar arasında mübarizə təbiidir. Ancaq ön planda ölkənin marağı durmalıdır. Necə ki, Azərbaycandan başqa, bütün ölkələrdə, bu, belədir. Müxalifət, mütləq mənada, uğur qazanacağının mümkünlüyünə inanmır və yalnız xaricdən maliyyə yardımı almaq kimi nə isə əldə etmək niyyətindədir. Hədəf Azərbaycanın gələcəyi, inkişafı deyil, daha artıq imtiyaz əldə etmək istəyi olduğu üçün, müxalifət düşərgəsində ayrı-ayrı partiyalar bir-birini yox etməyə hazır olduqlarını belə gizlətmirlər. Məsələn, Müsavatın qurultayından sonra A.Hacılı başqan secilsə də, AXCP sədrinin Qubad İbadoğluya üstünlük verməsi, onu deməyə əsas verir ki, Ə.Kərimli Hacılını heç başqan kimi də qəbul etmir. Yeni başqanının birgə aksiyalar keçirmək təklifini də rədd edən Ə.Kərimli, AXCP və "Milli Şura" kimi qurumlarla Müsavatın əməkdaşlığına və birgə fəaliyyətinə belə razı deyil. Digər tərəfdən, Müsavat nümayəndələrinin, hətta başqan müavini Tofiq Yaqublunun "Milli Şura", AXCP və şəxsən Ə.Kərimli ilə iş birliyi sözügedən qurumda qıcıq yaradır, hətta qurumdan xaric olunması məsələsi də müzakirə mövzusuna çevrilir. Qarşılıqlı ittihamlar, bir-birini qəbul etməmək kimi prinsiplər, ambisiyalar nəticə etibarilə müxalifətin fəaliyyətini siyasi arenadan tamam başqa bir müstəviyə, hərc-mərciliyə və didişmələrə sürükləyir.

Göründüyü kimi, yenə də eyni metodlar, eyni istiqamətdə fəaliyyət davam edir və belə olduğu halda, ya biri digərini kənarlaşdırmaq marağındadır, ya da digəri maraq, imtiyaz güdmədiyi təqdirdə qoşulmaq, birləşmək marağında deyil. Beləliklə, müxalifət düşərgəsində təmsil olunan ayrı-ayrı partiyalar, onların liderləri, həmişə olduğu kimi, yenə də demokratiya, azadlıq və sair ali prinsiplər pərdəsi altında şəxsi maraqlarını güdürlər. Belə olan halda, onların birləşmələrinə, formalaşmalarına, hətta özləri də inanmırlar.

**İnam HACIYEV**

# Əli Kərimlini ABŞ səfirinə bağlayan nədir?

*AXCP sədri şəxsi dividend və maraqlarını amerikalılardan umur*



Bir neçə gün öncə, AXCP sədri Əli Kərimlinin ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta ilə görüşməsi barədə məlumat yayılıb. Cəbhəçilərin mətbuat xidməti bu görüşü "Azərbaycandakı ictimai-siyasi vəziyyət, Azərbaycan-ABŞ münasibətlərinin müzakirəsi" kimi təqdim etsə də, əslində, bunun, sadəcə, gözdən pərdə asmağa cəhd olduğunu rahat şəkildə anlamaq mümkündür. Daha dəqiq desək, Ə.Kərimlinin amerikalı diplomatla görüşməsinin, məhz bir sıra pərdəarxası məqamları dayanır. AXCP sədri növbəti dəfə maddi və şəxsi dividend güddüyü "siyasi məhbus", "vətəndaş cəmiyyətinə və mətbuata qarşı təzyiq" və s. bu kimi yalanlarla dolu süni məsələlər ətrafında xal toplamağa çalışaraq, özünü "lider" olaraq tanıtmağa cəhd göstərib.

## Ə.Kərimlinin siyasi həyasızlığı sayəsində amerikalı səfir sonda ona bir neçə dəqiqəlik vaxt ayıra biləcəyini bildirib

Daxil olan digər məlumata görə, bu görüşün təşəbbüskarı heç də ABŞ səfirliyi olmayıb, əksinə, AXCP sədri uzun müddət idi ki, amerikalıların dipkorpusuna yalvararaq, bu görüşün baş tutmasını istəyib. Ancaq səfir R.Sekuta Ə.Kərimlinin çoxsaylı yalvarışlarına əhəmiyyət verməyərək, onunla görüşməkdə maraqlı olmadığını bildirib. Ə.Kərimlinin siyasi həyasızlığı sayəsində amerikalı səfir sonda ona bir neçə dəqiqəlik vaxt ayıra biləcəyini bildirib. Çünki səfir özü də, yaxşı bilir ki, Ə.Kərimli, hər zaman olduğu kimi, müxalifətin "məzlum və əzabkeş" obrazını yaratmaqla, seçkilər qabağı müəyyən öhdəliklər götürüb, maliyyə vəsaiti qazanmağa səy göstərəcək.

## Son 2 il ərzində Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi onunla bütün təmasları kəsib və görüş təşəbbüslərinin hamısını rədd edib

Yeri gəlmişkən, Ə.Kərimli R.Sekuta tərəfindən AXCP sədri kimi qəbul edilməyib. Çünki hazırda bu partiyaya iddialı olan digər alternativ AXCP də var ki, hazırda hansının real cəbhə partiyası olması sual altında qalmaqda davam edir. Əbəs yerə deyil ki, bu gün Ə.Kərimli ilə, nəinki ABŞ səfirliyi, eləcə də, başqa xarici qurumlar əlaqələrini kəsiblər. Məsələn, son 2 il ərzində Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi onunla bütün təmasları kəsib və görüş təşəbbüslərinin hamısını rədd edib.

Beləliklə, Ə.Kərimli, sadəcə, qarşıdan gələn prezident seçkilərində, xüsusilə, maddi maraqlarını təmin etmək istiqamətində hərəkətə keçməyə çalışır. Çünki onun özü də, yaxşı bilir ki, ümumiyyətlə, xalq və elektorat dəstəyi yoxdur və onun özü də daxil olmaqla, "Milli Şura"dakı "vahid namizədi" Cəmil Həsənli ictimai rəy tərəfindən, birmənalı olaraq, rədd edilməkdədirlər. Buna baxmayaraq, "tutar qatıq, tutmaz ayran" prinsipini özünə "kredo" seçən Kərimli, sadəcə, seçkilərdə iştirak üçün müəyyən həcmdə maddi vəsait əldə etməyə çalışır. Bu baxımdan, qeyd edə bilərik ki, Ə.Kərimlinin Sekuta ilə görüşü, sadəcə, fərdi maraqları üzərində qurulub və bunun nəticəsizliyi indidən bəllidir.

**Rövşən RƏSULOV**

# "25 ildir ki, dağıdıcı müxalifət uğursuzluğa məruz qalır"

*Niyaməddin Orduxanlı: "Bunlar müxalifət adını bir ştatlı iş yeri kimi və qazanc mənbəyi kimi əllərində saxlayırlar"*

2017-ci il artıq başa çatmaq üzrədir. Görünən odur ki, əvvəlki illərdə olduğu kimi, 2017-ci il də müxalifət üçün uğursuz və nəticəsiz başa çatdı. Keçirilən mitinqlərlə gündəmə gəlmək, diqqət mərkəzinə çevrilməyə çalışan müxalifət əks-nəticələrlə qarşılaşdı. Yəni mini aksiyaların rüsvayçılıqla baş çatması müxalifətə və onların havadarlarına vurulan növbəti sarsıdıcı zərbə oldu. BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı "Səs" qəzetinə açıqlamasında bildirdi ki, 25 ildir ki, dağıdıcı müxalifət uğursuzluğa məruz qalır: "Bu baxımdan da, əvvəlki illərdə olduğu kimi, 2017-ci il də müxalifət üçün uğursuz il oldu. Digər ölkələrdə rast gələ bilməzsiniz ki, Ə.Kərimli, İ.Qəmbər və R.Quliyev kimi, 25 ildir ki, müxalifətdə qalaraq siyasətlə məşğul olsunlar. 25 il bundam öncə, siyasətlə məşğul olan partiya sədrləri, artıq bu gün siyasətdən kənarlaşaraq, öz nəvələri və nəticələri ilə gün keçirməlidirlər. Amma radikal müxalifət düşərgəsini təmsil edən partiya sədrləri 25 ildir ki, heç bir mənası olmayan eyni siyasəti aparır və heç bir halda da, xalq tərəfindən nə isə bir dəstək qazana bilmirlər. Bunlar müxalifət adını bir ştatlı iş yeri kimi və qazanc mənbəyi kimi əllərində saxlayırlar. Onların bu qazanc mənbəyi haradan qaynaqlanır? Erməni lobbiçilərinin fəaliyyəti nəticəsində, dağıdıcı müxalif ünsürlər aylıq maaşlarını təmin edirlər. Bu baxımdan, müxalifət təmsilçiləri də xaricdən aldıqları maaşlardan imtina edərək, siyasətdən getmək niyyətləri yoxdur. Əslində, həm xarici qüvvələr, həm də müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də, çox gözəl bilirlər ki, onların xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur".

N.Orduxanlı onu da bildirdi ki, bu gün müxalifət daxilində olan qüvvələr bir-biri ilə normal şəkildə münasibət qura bilmirlər: "Sadəcə olaraq, onlara xaricdən, nə isə bir tapşırıq gələndə, bir-biri ilə əlaqə qururlar. Fakt budur ki, bu gün müxalifət təmsilçiləri düşərgə daxilində biri digərini sıradan çıxarmaq üçün bütün vasitə və üsullardan istifadə edirlər. Belə olan halda, müxalifətdə hansı irəliləyişin olmasından və birliklərin yaradılmasından söhbət gedə bilər? Əlbəttə ki, heç bir birliyin yaradılmasından söhbət gedə bilməz".



N.Orduxanlı, onu da qeyd etdi ki, artıq 2018-ci ilin astanasındayıq, yeni seçkilər ili gəlir: "Hər zaman olduğu kimi, indidən müxalifət düşərgədən artıq 4-5 namizədin olduğunu və bir-birinə güzəştə getməyəcəyi ilə bağlı məlumatlar yayılır. Yəni 2018-ci ildə keçirilməsi nəzərdə tutulan seçkilərdə, düşünürəm ki, İ.Qəmbər Ə.Kərimliyə güzəştə gedəcək və ya Ə.Kərimli R.Quliyevin marağı naminə, öz iddiasından əl çəkəcək. Onların bir-birinə güzəştə getmək şansları sıfır səviyyəsindədir. Deməli olar ki, müxalifət partiya sədrlərinin prezident seçkilərində, ən azından, 4 namizədlə iştirak etməsi gözlənilir. Əminliklə demək olar ki, onların prezident seçkilərində cüzi səs qazanmaq şansları belə yoxdur. Çünki onların arxasında xalq yoxdur".

**GÜLYANƏ**

# Azərbaycanda islam ənənələrinin yaranması və inkişafı

***İslam dünyada ən çox yayılmış dinlərdən biridir. Bu din VII əsrdə Ərəbistanda meydana gəlmişdir. 1400 ildir ki, İslam Yer kürəsinin milyonlarla əhalisinin əxlaq kodeksi, həyat tərzi, Allah qarşısında hamının bərabərliyi deməkdir. İslamın bərqərar olması ilə çoxallahlığa və bütpərəstliyə qarşı mübarizə başlandı. Məlumdur ki, islamadək insanlar Günəşə, Aya, müxtəlif ruhlara, təbiət cisimlərinə və əcdadlara sitayiş edirdilər. İslam, qismən də olsa, özündən əvvəlki dinlərdən - yəhudilik və xristianlıqdan bəhrələnsə də, onun bütün ehkamları və mərasimləri təkrarolunmazlığı ilə seçiyyələnir.***

O dövrdə daşa sitayiş, xüsusilə, geniş Məkkədə məbəd olan Kəbə bütün ərəb tayfaları üçün müqəddəs yer olmuş, müsəlmanların ilahilik rəmzinə çevrilmişdi. Qısa bir müddət ərzində, Məhəmməd peyğəmbər, ərəbləri birləşdirərək mərkəzləşdirilmiş dövlət təşkil etdi, Məhəmməd peyğəmbər, rəsmi olaraq, islamın paytaxtı elan edildi. İslamın banisi Məhəmməd peyğəmbər 570-ci ildə Məkkədə kasıb, ancaq kübar ailədə doğulmuşdur. İdealı real həyata qovuşduran Məhəmməd peyğəmbər gözəl natiq və mahir siyasətçi idi. Onun ideya-siyasi fəaliyyəti haqqında təlimi öz həyatiliyini bu gün də saxlamaqdadır. İslamın əsasını aşağıdakılar təşkil edir: təkallahlığı və peyğəmbəri tanıma; ibadət, oruc tutmaq, yoxsulların xeyrinə vergi, zəkat verilməsi və Həcc ziyarəti.

Azərbaycanın etnoqraf alimi Rəfiqə Quliyeva yazır: "Müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim" hesab olunur. Müsəlmanların cəmiyyətdə davranışı, bir-biri ilə qarşılıqlı münasibətləri hüquqi normalarla - şəriətlə nizamlanır. Şəriət "Quran" və hədislər vasitəsilə müsəlmanlara çatdırılan qanunlarıdır. Şəriət insanların Allaha ibadətini və onların bir-birilərinə olan münasibətlərini tənzimləyir.

İslam tarixinin ilk mərhələlərində "Quran"ın başqa dillərə tərcüməsi qadağan olunduğundan müsəlmanlar bu müqəddəs kitabdan ərəb dilində bəhrələnirlər. Sonralar "Qurani-Kərim" bütün müsəlman xalqlarının dillərinə tərcümə olunmuşdur.

Müsəlman uçün "Quran"ın ehkamları əsasında yaşamaq Allahın iradəsini ifadə etmək deməkdir. Məhəmməd peyğəmbərin ölümündən 3 əsr keçdikdən sonra, hakimiyyət üstündə aparılan mübarizələr sonralar islamın daxili strukturuna təsir etdi. Artıq VIII əsrin ortalarında islamda azı 3 dini-siyasi qruplaşma - sünnilik, şiəlik və vəhhabilik mövcud idi. İslamda müxtəlif cərəyanların fəaliyyət göstərməsinə baxmayaraq, müsəlmanlar həmişə böyük təmkinlilik göstərmiş və səbirlə vahid din ətrafında birləşməyi hər şeydən üstün tutmuşlar".

İslamın ayrı-ayrı ölkələrdə yayılması, yerli şəraitdən asılı olaraq, özünəməxsus məhəlli xüsusiyyətlərin formalaşması, müxtəlif xalqlarda etno-mədəni proseslərinin intensivləşməsi şəraitində baş verirdi. Əsrlər boyu bu dini qəbul edən ölkələrin xalqları ilə islam arasında ideoloji baxımdan qarşılıqlı əlaqə və qarşılıqlı təsir olunmşdur. İslam, adətən, qarşılaşdığı ölkələrdəki yeni ideyaları, xalqların adət-ənələrini öz təliminə uyğunlaşdırmağa çalışırdı. Xilafətin uzun müddət hökmranlıq etməsində islam faktoru mühüm rol oynamışdır. Ərəblər istilaçılıq siyasətini islamın təbliği ilə birgə aparırdılar. VII əsrdə Ərəbistanda meydana çıxan islam, qısa bir müddət ərzində, Yer kürəsinin böyük bir qismini əhatə etdi.

Azərbaycanda islamın yayılması 639-cu ildə ərəblərin Azərbaycana yürüşü ilə bağlıdır. 643-cü ildə onlar, artıq Dərbəndi fəth etmişdilər. Xəlifə Osmanın dövründə ərəblərin Şimali Azərbaycana yürüşü daha da genişləndi. Yerli əhali yeni dinə bütün məhrumiyyətlərdən və əzablardan xilas olmaq vasitəsi kimi baxırdı. Qeyd etmək lazımdır ki, fəth etdikləri ölkələrdə ərəbləri, birinci növbədə, yeni dini təbliğ etməkdən daha çox əhalini özlərinə siyasi cəhətdən tabe etmək məsələsi maraqlandırırdı.

Başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da islam bir sıra qədim dini etiqadlar və inamlarla üzə-üzə gəldi. İslamadək Azərbaycanda çox mürəkkəb konfessional durum hökm sürürdü. Burada müxtəlif heyvanlara və bitkilərə, təbiət cisimlərinə inamla yanaşı, zərdüştlük və xristianlıq çox geniş yayılmışdı. Təsadüfi deyil ki, ilk mərhələlərdə islam Azərbaycan ərazisində heç də eyni dərəcədə yayıla bilmirdi. İslam Arranda xristianlıq, cənub bölgələrində isə zərdüştiliklə qarşılaşmışdı. Qeyd etmək lazımdır ki, bu din ən çox zərdüştlük və çoxallahlığın müqavimətinə rast gəlirdi. İslam dini ilə bütpərəstlik - atəşpərəstlik arasında təsir və qarşılıqlı əlaqə prosesləri getməyə başladı.

R.Quliyevanın fikrincə, Əli Biruninin məlumatına görə, Cənubi Azərbaycan əhalisi, artıq xəlifə Əlinin dövründə islamı qəbul etmişdi. Əndəluslu Həmid əl-Qərnatinin məlumatına görə, Dərbəndin dağ kəndlərində hələ islamı qəbul etməyən atəşpərəstlər mövcud idi. Şimali Azərbaycanda islam-xristianlıq qarşıdurması özünü daha qabarıq göstərirdi. Ona görə də, burada müsəlmanlaşma prosesi daha uzun sürmüşdür. Əvvəlki dinlərə sitayiş əsas etibarilə Azərbaycanın müxtəlif bölgələrində davam etməkdə idi. "Xristianlıqdan fərqli olaraq, islam missionerlər vasitəsilə yox, ölkələri işğal etmək yolu ilə yayılırdı. Azərbaycanda islamın məcburi qaydada qəbul etdirilməsi halları olmamışdır. Ölkədə xristianlıq və zərdüştlük də təqib olunmamışdı".

Azərbaycanda islam iki təriqətin nümunəsində - sünnilik və şiəliklə təmsil olunmuşdur. Şiələr, əsasən, çoxluq təşkil edir.

İslam Azərbaycanda əvvəlki sosial-mədəni təsisatları transformasiyaya uğratdı. Hər bir ölkədə olduğu kimi, burada da islamın yerli şəraitə uyğunlaşdırılmış xüsusiyyətləri formalaşırdı. Məlumdur ki, orta əsrlərdə Şərqdə şiə və sünni məzhəblərinə ayrılmış türk dövlətləri arasında münaqişələr baş verirdi. Bunun əksinə olaraq, Azərbaycanda həmişə belə hallara və o cümlədən, separatçılığa qarşı mübarizə meyilləri güclü olmuşdur. Bu isə, ölkədə sabitlik və tərəqqi üçün zəmin yaratmış başqa dinlərə isə tolerant münasibət formalaşdırmışdır.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra buranın etnik tərkibi böyük dəyişikliyə uğradı. Köçürmə siyasəti nəticəsində, ölkənin dini həyatında dəyişiklik baş verdi və xristian əhalinin sayı artdı. Əhalinin əksəriyyətini müsəlmanların təşkil etmələrinə baxmayaraq, imperiyanın şovinizm siyasəti nəticəsində ictimai-siyasi həyatda xristianlıq amili mühüm rol oynamağa başladı.

Sovet hakimiyyəti illərində Azərbaycanda dini qurumların fəaliyyəti xeyli məhdudlaşdırıldı və dini mərkəzlər iqtisadi bazadan məhrum edildi.

1918-ci ildə "Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında" elan olunmuş Dekretdə dövlətin və məktəbin dünyəvi olması təsdiqləndi və şəriət əsasında kəbin qadağan edildi. Kəbinə də ailə sahəsində vətəndaşlıq vəziyyətini tənzimləyən yeni mülki qanunlar tətbiq edildi. Dövlət və tədris müəssisələrində dini təbliğ etmək qadağan olundu, kütləvi elmi ateizm təbliğatı başlandı. Yüzlərlə məscidlər dağıdıldı və yaxud anbarlara çevrildi. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı islamı məişət səviyyəsində qoruyub - saxlaya bilmişdi.

Belə bir şəraitdə 1925-1928-ci illərdə Məkkə, Kərbəla və Məşhəd şəhərlərini 500-600 nəfər azərbaycanlı ziyarət etmişdi. Bunu XX əsrin 20-ci illərində kommunistlərin müsəlmanlara liberal münasibəti ilə izah etmək olar. Bununla bərabər, həmin illərdə mədrəsələrdə şəriətin tədrisi qadağan olunmuşdu.

Kütləvi ateizm təbliğatına və Sovet vətəndaşlarının sosial-mədəni həyatında dəyişikliklərə baxmayaraq, islam öz mövqeyini saxlamaqda davam edirdi.

Hələ XX əsrin əvvəllərində Şərqdə ilk dünyəvi dövlət olan Azərbaycan Cümhuriyyəti (1918-1920) Şərqin bütün müsəlman dövlətləri arasında ilkin vicdan azadlığı elan etmişdi.

Bu gün bu ənənəni müstəqil Azərbaycan Respublikası davam etdirir. Ümummilli Lider Heydər Əliyev islam dəyərlərini yüksək qiymətləndirərək demişdir: "İslam dini başqa dinlərə həmişə hüsnrəğbətlə yanaşıb, heç vaxt başqa dinlərin ehkamlarına qarşı olmayıb, biz hər bir millətə mənsub olan insana və hər dinə hörmətlə yanaşmışıq. Bu Allahın əmridir, bu, bizim Ulu Peyğəmbərimiz Məhəmməd əleyhissəlamın bizə tövsiyəsidir".

Əxlaqi və milli dəyərlər islamla sıx bağlıdır. İslam milli sərhədləri aşaraq, beynəlxalq əhəmiyyət daşıyır, müxtəlif xalqları vahid bayraq altında birləşdirir, xalqlar arasında qarşılıqlı yardım və xeyirxahlıq hissləri aşılayır. Bu prinsiplər ümumdünya mədəniyyətinin formalaşmasına xidmət edir.

İslamda yaxşı sifətləri əxlaqi keyfiyyətlər, pisləri isə rəzil (alçaq) sifətlər adlandırırlar. Belə ki, əgər insanın əməlləri yaxşı sifətlərdən təsirlənmiş olarsa, onu əxlaqi gözəllik, yox əgər rəzil sifətlərdən bəhrələnmiş olarsa, onu əxlaqi çirkinlik deyə qəbul edirlər.

Əxlaqi keyfiyyətlərə yetişmək üçün elmi, əməli təcrübə və çalışmalar lazımdır. İlk növbədə, fəzilətli və rəzil xüsusiyyətləri müəyyənləşdirmək, insanın şəxsiyyətindən və həqiqi məqamından xəbərdar olmaq, sonra isə nəfsi-əmmarə (pis işlərə sövq edən qüvvə) və mübarizə aparmaq lazımdır. Əgər mübarizə olmasa, insan nəfsani (heyvani) ehtiraslara qalib gələ bilməz. Bu döyüş meydanından qələbə ilə, başucalıqla çıxmayan insanlar nəfsin fəzilət və gözəlliklərindən məhrumdurlar. Beləri qiyamət və hesab günü ziyan çəkənlərdən olar, necə ki, "Qurani-Kərim"də buyurulur: "O gün ki, nə mal-dövlət, nə də övladlara fayda verər! Ancaq sağlam (təmiz, daxildə şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmaya) bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!"

Əxlaqi məsələlərin hər bir hissəsini özünəməxsus bəhsə malik olan müxtəlif nəzəriyyələr əsasında araşdırmaq olar. Biz burada yalnız olardan ən əhəmiyyətlisinə işarə edirik:

1.Nəzəri əxlaq və ya əxlaq fəlsəfəsi,

2. Tətbiqi əxlaq və ya əxlaqi-müqarin,

3.Əməli əxlaq və ya əxlaqi-üslub.

Nəzəri əxlaqda əxlaq fəlsəfəsi, yəni əxlaqın bünövrə və əsasından, yaxşılıq və pisliklərin meyarından bəhs olunur. Əxlaqın nisbi və mütləq olması, təbii gözəllik və çirkinliklər, fayda və ziyanlar bu bölmənin diqqət mərkəzində durur.

Tətbiqi əxlaqda müxtəlif nəzəriyyələr müqayisə edilir, onları araşdırdıqdan sonra ölçü və prinsiplərinə uyğun olaraq, aralarından ən yaxşısı seçilir.

Əməli əxlaqda ədəb - ərkan və davranış əsas yer tutur. Bir sözlə, islam ənənələri əsrlər boyu, Azərbaycanın milli-mənəvi dəyərlər sisteminə daxil olaraq etiqad, həyat tərzi, əxlaq, mədəniyyət kimi böyük və mühüm rol oynamışlar.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 27 dekabr

## Xərçəngdən qoruyan çay...



Karkade çayı çox faydalı və müalicəvi içkidir. Çayın qeyri-adi tünd qırmızı rənginə görə onu tez-tez “qırmızı çay” adlandırırlar. Çay qibiskus gülündən hazırlanır. Bu səbəbdən ona “çay” demək düzgün deyil, du daha doğrusu bitki dəmləməsidir. Əməköməci nəslindən olan qibiskusu həmçinin “Sudan qızılgülü” adlandırırlar. Qibiskus isti ölkələrdə bitir. Qədim ərəb elmi əsərlərində karkade çayını “bütün xəstəliklərin dərmanı” adlandırırlar.

Karkade çayı antioksidantlarla zəngindir. Bu maddələr hüceyrələri sərbəst radikalların təsirindən qoruyaraq orqanizmdə şişlərin əmələ gəlməsinin qarşısını alır, orqanizmi cavanlaşdırır.

Qırmızı çay antosian maddələrlə də olduqca zəngindir. Bu maddələr damarların sağlamlığını qoruyur. Bu səbəbdən karkade çayı damar xəstəlikləri zamanı və bu xəstəliklərin profilaktikası üçün olduqca faydalıdır. Orqanik turşularla zəngin olan karkade çayı qanda şəkərin və xolesterinin səviyyəsini aşağı salır. Sidikqovucu təsirə malik olan qırmızı çay arterial təzyiqi aşağı salmağa kömək edir. Karkade çayı mədənin turşuluğunu artırır və bu səbəbdən qastrit və mədə xorası xəstəliklərindən əziyyət çəkənlərə bu çayı qəbul etmək tövsiyə edilmir.

## Evlilik qocalıqdakı əqli zəifliyin qarşısını alır



Demensiya və ailə həyatı arasındakı bağlılığı əhatə edən 15 tədqiqatın nəticələri hərtərəfli analiz edilib. Tədqiqatlar Avropa, Asiya, Şimali və Cənubi Amerikanın 812 mindən çox əhalisi arasında aparılıb. “Zdorovye mail.ru” saytı bu barədə yazıb. Hesablamalara əsasən, ailə həyatı qocalıq əqli zəifliyi riskini 30 faiz aşağı salır. Onlara nisbətən bütün ömürlərini təklikdə keçirənlərdə bu risk orta hesabla 42, dullarda isə 20 faiz daha yüksəkdir. Lakin buna baxmayaraq, boşanmalar intellektual bacarıqlara təsir etmir.

Alimlərin fikrincə, uzunmüddətli evliliklər funksiya itkilərinin qarşısını alaraq baş-beynin aktivliyinin qorunmasına kömək edir. Bundan əlavə araşdırmalar ailədə mehribanlıq və xoş mühitdə yaşayan yaşlıların düzgün qidalanmalarına, sağlamlıqlarına, zamanında tibbi müayinələrdən keçmələrinə daha çox diqqət yetirdikləri də bəlli olub. Bu da onların demensiya riskini olduqca aşağı salır.

## Masallıda 7 otaqlı evdə yanğın olub



Masallı rayonunda 7 otaqlı evdə yanğın olub. Fövqəladə Hallar Nazirliyindən SİA-ya verilən məlumata görə, rayonun Xəlfələr kəndində ümumi sahəsi 220 kv.m olan ikimərtəbəli 7 otaqlı evin yanar konstruksiyaları 140 kv.m sahədə yanıb. Evin qalan hissəsi yanğından mühafizə olunub. Yanğın söndürülüb.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika tarixi və nəzəriyyəsi ixtisası üzrə II kurs magistri Abdullayeva Kubra Abuzər qızına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi İsmayılova Vəfa Fikrət qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Lyuis Həmilton: “Bottas “Mercedes”ə daha inamlı ab-hava gətirib”



2017 Formula 1 dünya çempionatının qalibi “Mercedes” komandasının pilotu Lyuis Həmilton komanda yoldaşı Valtteri Bottas haqqında danışıb. SİA-nın məlumatına görə, 2013-2016-cı illərdə Niko Rosberqlə komanda yoldaşı olan L.Həmiltonun onunla heç də yaxşı münasibəti olmayıb. Həmilton və Rosberq daima mübahisələrlə yadda qalıblar. 2016-cı ildə N.Rosberq karyerasını bitirdiyinə görə, onun yerinə “Williams” komandasından V.Bottas gəlib. Yeni komanda yoldaşı ilə yaxşı anlaşan L.Həmilton geridə qalan bir il müddətində “Mercedes”in uğurları üçün səylə çalışa bilib. Onlar zaman-zaman yarış trasında mövqe dəyişikliyi belə ediblər.

L.Həmilton V.Bottasın “Mercedes”ə daha inamlı ab-hava gətirdiyini vurğulayıb. 32 yaşlı pilot finlandiyalı komanda yoldaşı ilə yaxşı yola getdiyini bildirib: “Hamı üçün demirəm, amma mənim üçün daha yaxşı iş mühiti yaranıb. Valtteri çox pozitiv insandır və həqiqi bir yarışçıdır. O, hər zaman yaxşı olmağa çalışır. Yarışdan kənarda mühəndislərlə mübahisə etmir və birlikdə çalışmağa üstünlük verir. Bottasla öncələr komanda yoldaşı olmamışıq. İndi onunla daha yaxşı komanda yoldaşı olmağa çalışırıq və aramızda hörmət var”.

***Elgün Vidadioğlu***

## Faiq Qarayev BOK-un mükafatına layiq görülüb



Azərbaycan Voleybol Federasiyasının vitse-prezidenti və qadınlardan ibarət yığmanın baş məşqçisi Faiq Qarayev Beynəlxalq Olimpiya Komitəsinin (BOK) mükafatına layiq görülüb. SİA-nın məlumatına görə, bu barədə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə məlumat verib. O, bildirib ki, F.Qarayev qadın idmanının inkişafına göstərdiyi xidmətə görə təltif edilib.

## Dik Advokat “Sparta”nı çalışdıracaq



Futbol üzrə Hollandiya millisinin sabiq çalışdırıcısı Dik Advokat məşqçiliyə qayıdıb. Qocaman mütəxəssis Rotterdam “Sparta”sının baş məşqçi vəzifəsinə təyin edilib. Bu barədə klubun saytı məlumat yayıb. 70 yaşlı mütəxəssislə bu mövsümün sonuna kimi müqavilə imzalanıb. Qeyd edək ki, bu ayın 1-i Hollandiya millisi ilə başa çatan müqaviləni yeniləməyən D.Advokat məşqçi karyerasını bitirdiyini açıqlamışdı.

## “Milan” İnter”ə uduzsa, Qattuza istefa verəcək



“Milan”ın baş məşqçisi Cennaro Qattuza istefa verə bilər. Qol.az-ın “Corriere dello Sport”a istinadən yaydığı xəbərə görə, komanda İtaliya kubokunun 1/4 finalında “Fiorentina” ilə görüşdə və ölkə çempionatının 19-cu turunda “İnter”lə matçda uduzacağı təqdirdə, 39 yaşlı mütəxəssis bu addımı atacaq. Qeyd edək ki, “Milan” Qattuzonun rəhbərliyi altında keçirdiyi 6 matçın cəmi 1-də qələbə qazanıb. Əlavə edək ki, C.Qattuzo noyabrın 27-i istefaya göndərilən Vinçenzo Montellanın əvəzinə baş məşqçi təyin edilib.C.Qattuzo klubdan ayrılacağı təqdirdə, Montellanın yenidən komandaya qayıdacağı iddia olunur.

## “Real” hücumçu transferinə 200 milyon avro ayırıb




“Real” bu qış hücumçu transferinə 200 milyon avro ayırmağa qərar verib. Qol.az-ın “Marca”ya istinadən yaydığı xəbərə görə, Madrid klubunun prezidenti Florentino Peresin hücum xəttinin gücləndirilməsi üçün bu məbləği ödəməyə hazır olduğu bildirilib. “Real”ın transfer siyahısındakı əsas oyunçunun “İnter”in futbolçuu Mauro İkardi olduğu iddia olunub. Bundan başqa Timo Verner və Fedor Smolovun da transferinin mümkünlüyü yazılıb. Qeyd edək ki, “Real” hazırda La Liqada 31 xalla 4-cü pillədə qərarlaşıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**